# Şəxsiyyətlər

- ✓ **Hüseynəli xan Qacar**
- ✓ **Hüseynqulu xan Qacar**
- ✓ **Hacı Süleyman Qacar İrəvani**
- ✓ **Fazil İrəvani**
- ✓ **Mirzə Qədim İrəvani**
- ✓ **Abbas Məhəmmədzadə**
- ✓ **Cabbar Əsgərzadə**
- ✓ **Mirabbas Mirbağırov**
- ✓ **Teymur xan Makinski**
- ✓ **Rəşid bəy İsmayılov**
- ✓ **Əli Məhzun**
- ✓ **Mirzə Məmmədvəli Qəmərlinski**
- ✓ **Məhəmməd Məhərrəmov**
- ✓ **Nəriman bəy Nərimanbəyov**
- ✓ **Əkbər ağa Şeyxülislamov**
- ✓ **Bağır bəy Rzayev**
- ✓ **Yunis Nuri**
- ✓ **Mustafa bəyTopçubaşov**
- ✓ **Həbib bəy Səlimov**
- ✓ **Abbasqulu bəy Şadlinski**
- ✓ **Əziz Əliyev**
- ✓ **Maqsud Məmmədov**
- ✓ **Əhməd Rəcəbli**
- ✓ **Məhəmməd Ağaoğlu**
- ✓ **Məmmədəli Nasir**
- ✓ **Saleh Güllicinski**
- ✓ **Həsən Əliyev**
- ✓ **Səid Rüstəmov**
- ✓ **Heydər Hüseynov**
- ✓ **Cəfər Xəndan**
- ✓ **Həsən Seyidov**
- ✓ **Hüseyn Seyidzadə**
- ✓ **Bağır Seyidzadə**
- ✓ **Əhməd Cəmil**
- ✓ **Əfşan Qədimbəyova**

- **Əkbər Yerevanlı (İrəvanlı)**
- **Mirəli Seyidov**
- **Kamil Əliyev**
- **Həbib Həsənov**
- **Sabir Rizayev**
- **Zərifə Budaqova**
- **Cahangir Əliyev**
- **Zərbəli Qurbanov**
- **İsrafil Məmmədov**
- **İsa İbrahimov**

## Hüseynəli xan Qacar

Hüseynəli xan Ziyadoğlu Qacar 1759-1783-cü illərdə İrəvan xanı olmuşdur. Hüseynəli xanın Qulaməli xan, Məhəmməd xan, Məhəmmədqulu xan adında övladları olmuşdur. Qulaməli xan 1783-1785-ci illərdə İrəvan xanı olmuşdur. Qulaməli xanın qətlə yetirilməsindən sonra Hüseynəli xanın ikinci oğlu Məhəmməd xan 1785-1805-ci illərdə İrəvan xanı olmuşdur. Məhəmməd xanın anası Vedibasarın Şadılı tayfasından idi. Məhəmməd xan həmçinin Naxçıvan xanı Kalbalı xanın qaynı idi.

Şərqin nadir memarlıq incilərindən hesab edilən Xan sarayı, yaxud Sərdar sarayı İrəvan sərdarı Əmirqunə xan Qacar (1605-1625) tərəfindən ucaldılmış, 1760-1770-ci illərdə İrəvan xanı Hüseynəli xan (1762-1783) tərəfindən təkmilləşdirilmişdi. 1791-ci ildə Hüseynəli xanın oğlu Məhəmməd xan (1784-1805) sarayın Şüşəbənd adı ilə də tanınan Güzgülu salonu və Yay imarətini inşa etdirmişdi.

1782-ci ildə İrəvan xanı Hüseynəli xan xanlığın rəsmi sənədlərini və şəxsi yazışmalarını toplayıb qaydaya salmaq üçün Təbrizdən xəttat dəvət etmişdi. İrəvan xanlığının və İrəvan şəhərinin tarixi üçün qiymətli mənbə olan həmin əlyazmaların orijinalları “Hüseynəli xanın divanı” adı altında toplanaraq kitab şəklinə salınmışdı. “Hüseynəli xanın divanı”nın yeganə əlyazma nüsxəsi hazırda Ermənistan Dövlət Muzeyində saxlanılır. (Əlyazma № 5039/1121).

## Hüseynqulu xan Qacar

Hüseynqulu xan təxminən 1742-ci ildə Cənubi Azərbaycanda anadan olmuşdur. Qacarların Qoyunlu/Qovanlı tayfasına mənsub olmuşdur. Bəzən Qəzvini adından istifadə etməsinə görə onun Qəzvində doğulduğu ehtimal edilir. Lakin çox güman ki, bu ləqəbin işlədilməsi onun Qəzvin yaxınlığında Sadiq xan Şaqaqi üzərində qələbəsi və bundan sonra orada hökmdarlığı ilə əlaqədardır. Atası Məhəmməd xan Qacar məşhur sərkərdə olmuşdur. Doğulduğu yer məlum deyil. Tarixi mənbələrdə Hüseynqulu xanın adı ilk dəfə Şirazda sarayın üzvü kimi xatırlanır, O, burada qullarağası kimi fəaliyyət göstərmişdir. Fətəli şah taxta çıxandan sonra, ona olan sədaqətinə görə, Hüseynqulunu bir neçə üsulla mükafatlandırmışdı: Xorasanın idarəçiliyi də daxil olmaqla, ona bir neçə vəzifə vermiş, Hüseynqulunun bacısı ilə evlənmiş, Hüseynqulunun qızlarının birinə vəliəhd Abbas Mirzə ilə evlənməyi təklif etmiş və 29 yaşlı qızının Hüseynqulunun oğlu Məhəmməd ilə evlənməsinə razılıq vermişdir. Birinci Rusiya-İran müharibəsi (1804-1813) zamanı İrəvan qalasının rus qoşunlarından qorunması üçün şahın güclü və sədaqətli sərkərdəyə ehtiyacı var idi. Fətəli şah 1807-ci ildə Hüseynqulunu İrəvan xanı və şah qüvvələrinin baş komandanı (sərdarı) təyin edir. Bir il ondan sonra Hüseynqulunun qardaşı – hansı ki, igidliyinə görə "Sər Aslan" (yəni aslanlar başı) adını qazanan Həsən xan da İrəvana gəlir.



20 illik hökmranlığı zamanı Hüseynqulu xan ədaləti üsul-idarəçiliyə görə əhalinin rəğbətini qazanmışdır. Xarici səyahətçilər onu vəliəhd Abbas Mirzə qədər ixtiyar sahibi, ən güclü və var-dövlətli hökmdarlarından biri adlandırırdılar. Hüseynqulu xan pul kəsmək ixtiyarına malik idi. O, gəlirin böyük hissəsini müdafiə məqsədlərinə istifadə etməyə imkan əldə edirdi. Hüseynqulu xan ticarəti həvəsləndirmiş və sabit idarəçilik qurmuşdu. Erməni və rus mənbələri də Hüseynqulu xanın mərhəmətli, səmimi, alicənab, vicdanlı və ədalətli xan olduğunu təsdiqləyirlər.

1827-ci ilin sentyabrın 1-də rus qoşunları Sərdarabad qalasını mühasirəyə alırlar. Hüseynqulu xan İrəvan qalasından çıxıb Sərdarabad qalasını mühafizə edən nəvəsinin köməyinə yetişmək istəyir Lakin rus qoşunları buna imkan vermirlər. O, İran-Türkiyə sərhədinə çəkilmək məcburiyyətində qalır. İrəvan qalasının müdafiəsi Həsən xanın üzərinə üzərinə düşür. Oktyabrın 1-də rus qoşunları İrəvan qalasını ələ keçirirlər. Həsən xanı isə ruslar əsir alır və onu Peterburqa imperator I Nikolayın hüzuruna göndərmək qərara alınır. Müəyyən səbəblərdən Həsən xanı aparan kareta yolda Terek çayı üzərindəki Yekaterinoqrad şəhərində ləngiyir. Lakin onun sonrakı taleyi haqda məlumat verilmir. Fətəli şah Səfəvilərdən ona miras qalan Teymurləngin qılıncını müharibələr zamanı göstərdiyi igidliyə görə Həsən xana hədiyyə etmişdi. Həsən xanın həmin qılıncını general-leytenant Krasovski İmperatora hədiyyə olaraq göndərir. Fars mənbələrinə istinadən Hüseynqulu xan 1831 ildə İranda vəfat etmişdir

## Hacı Süleyman Qacar İrəvani

İrəvan şəhərində anadan olmuş görkəmli Azərbaycan həкimi və alimi Hacı Süleyman Qacar İrəvaninin (XVIII əsr) fars dilində yazdığı "Fəvaidül-hiкmət" ("Hiкmətin faydası") əsəri nəinкi Azərbaycanda, eləcə də Orta Asiyada və İranda böyüк şöhrət qazanmışdı. Bu кitab orta əsr əcazçılıq, ensiкlopediyasıdır və minlərcə dərman bitkisinin, heyvan və mineralın müalicəvi кeyfiyyətlərindən bəhs edir. "Fəvaidül-hiкmət" əsərinin nadir əlyazma nüsxələri Azərbaycan MEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və eləcə də, İran və Misirdə saxlanılır. Kitab iкi hissədən ibarətdir. Birinci hissədə dərman xassələrinin əlifba sırası ilə siyahısı verilib. İкinci hissə isə orta əsr farmaкoloji terminlərinin izahlı lüğətidir. Burada bitki, heyvan və mineralların Azərbaycan, türк, ərəb, fars, yunan, çin, hind və başqa dillərdə adları verilmişdir .

## Fazil İrəvani

Şeyxülislam Fazil İrəvani 1782-ci ildə İrəvan şəhərində anadan olmuşdur. İlk təhsilini şəhərdəki molla məktəbində alıb. 20 yaşında ikən dünyanın ən qədim universitetlərindən biri olan Qahirədəki Əl-Əzhər Universitetində oxumağa getmişdir. 20-25 il Qahirədə qalaraq mükəmməl təhsil almışdır. Sonra İsfahan və Təbriz şəhərlərində axundluq etmişdir. Şərq tarixinə, dini elmlərə dair əsərlər yazmışdır. Vətənə qayıdandan sonra İrəvandakı Göy məscidin baş axundu olmuşdur.



Müctəhid Fazil İrəvani 1843-cü ildə Qafqaz Müsəlmanları Şiə Ruhani İdarəsi sədrinin müavini, 1847-1872-ci illərdə Qafqazın şeyxülislamı olmuşdur. 1872-ci ildə Şeyxülislam vəzifəsindən istefa verən Fazil İrəvani yenidən İrəvana qayıtmış, onun adı ilə adlandırılan “Şeyxülislam” məhəlləsində yaşamışdır. Fazil İrəvani 1885-ci ildə doğma İrəvan şəhərində 103 yaşında vəfat etmişdir.

Fazil İrəvaninin "Kitabüt-təharət" (“Paklıq kitabı”) əsəri 1883-cü ildə Təbrizdə daşbasması (litoqrafiya) üsulu ilə çap olunub. Onun “Qızılgül və bülbül” povesti Sankt-Peterburqda yaşayan Xocens Markar Geğamyan tərəfindən tərcümə olunaraq 1812-ci ildə erməni və rus dillərində çap edilmişdir. Sonra isə bu əsər Xocens Markarın öz orijinal əsəri kimi, Avropada fransız və alman dillərində dönə-dönə çap edilmişdir. Əsəri fransız dilinə Vayyan de Floribal, alman dilinə Yozef fon Hammer tərcümə etmişlər. Fransız tədqiqatçısı Şarl Jorjien 1892-ci ildə məsələyə aydınlıq gətirərək yazmışdır ki, “Qızılgül və bülbül” əsəri Fazil və ya Fazili adlı türk müəllifinin əsəridir, Xocens Markar sadəcə olaraq, “Qızılgül və bülbül”ü erməni və rus dillərinə tərcümə edərək öz əsəri kimi çap etdirmişdir. Kitabın əsl müəllifinin Fazil Irəvani olduğu bəlli olduqdan sonra belə, ermənilər “Qızılgül və bülbül”ü 1950-ci ildə yenə də erməni müəllifinin əsəri kimi, Freznoda (ABŞ) çap etdirmişlər. “Qızılgül və bülbül” əsərinin orijinalı Matenadaranda – Mesrop Maştos adına Qədim Əlyazmalar İnstitutunda saxlanılır.

## Mirzə Qədim İrəvani

Mirzə Qədim İrəvani (1826-1875) Azərbaycan dəzgah boyakarlığının banisi hesab edilir. İrəvan Xan sarayında bərpa işlərininin bir qismini həyata keçirmişdir. İrəvan şəhərində anadan olan Mirzə Qədim 15 yaşında Tiflisdəki progimnaziyanı bitirmişdir. Fars, rus və fransız dillərini mükəmməl öyrənən Mirzə Qədim İrəvana qayıtdıqdan sonra ömrünün sonunadək poçtda teleqrafçı vəzifəsində çalışmışdır. Verilən məlumatlara görə, Mirzə Qədimin atası Məhəmməd Hüseyn məşhur şəbəkə ustası olmuşdur. Mirzə Qədimdə rəssamlığa meyl hələ Tiflisdə progimnaziyada oxuduğu vaxt yaranmışdı. Əvvəlcə şüşə və parça üzərində şəkillər çəkən Mirzə Qədim sonralar portret və ornamental kompozisiyalar ustası kimi məşhurlaşmışdır. Kollec asessoru (XIX əsrdə əsilliklə zadəgan olan şəxslərə verilən mülki rütbə - N.M.) olan Mirzə Qədimin İrəvaninin Qərbi Avropa, Şərq və rus yazıçılarının əsərlərindən ibarət zəngin kitabxanası olmuşdur.

İrəvan Xan sarayının Güzgülü zalındakı portretlərin və ornamental kompozisiyaların bərpası Mirzə Qədimə həvalə edilmişdi. O, Güzgülü zaldakı divar rəsmlərinin əksəriyyətini bərpa etmişdir. Görünür, 1867-1874-cü illərdə Xan sarayında dəfələrlə aparılan bərpa işlərini Mirzə Qədim həyata keçirmişdir. Rəssamın yağlı boya ilə çəkdiyi “Fətəli şah”, “İrəvan sərdarı”, “Həsən xan”, “Rüstəm Zal” portretləri hazırda Tiflisdə Gürcüstan Dövlət İncəsənət Muzeyində, “Abbas Mirzə” portreti isə Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır.

# Abbas Məhəmmədzadə

Təxminən 1864-ci ildə tacir ailəsində anadan olmuşdur. İsfahanda fars dilini öyrənmiş, İrəvanda mədrəsədə təhsil almışdır. 1881-ci ildə İrəvanda açılan müəllimlər seminariyasında ərəb və fars dillərindən dərs demişdir. Fars dilini mükəmməl bildiyi üçün onu Fars Abbas deyə çağırırlarmış. 1912-ci ildə Bakıda "Orucov qardaşları" mətbəəsində "Güldəstə" adlı dərsliyi fars dilində çapdan cıxmışdır. 1913-cü ildə onun eyni zamanda Bakıda, Tiflisdə və İrəvanda fars dilində "Bədrağatül-Əftal"("Balalara hədiyyə"), "Самоучителъ фарсидкого языка для русских" dərslikləri nəşr edilmişdir. 1918-ci ildə İrəvanda törədilən qırğınlar zamanı Təbrizə pənah gətirmiş və bir il sonra orada vəfat etmişdir.

Onun böyük oğlu Cabbar Məmmədzadə (1882-1937) İrəvan müəllimlər seminariyasını 1902-ci ildə bitirmiş, 1907-ci ildən həmin seminariyada müəllim işləmişdir. 1918-ci ilin avqustunda müəllimlər seminariyası bağlandıqdan sonra Naxçıvana gəlmiş, iki il oradakı ali ibtidai məktəbdə dərs demişdir. Həmin illərdə onun 3 kitabı ("Самоучителъ тюрского языка для русских", "Самоучителъ русского языка для тюрок", "Самоучителъ русского языка для персов") nəşr olununr. O, 1920-ci ildə Bakıya köçmüş və ali məktəblərdə mühazirələr oxumuşdur. 1937-ci ildə "Azərbaycanda tədris metodikası tarixi" adlı əsərinə görə ona pedaqoji elmlər doktoru elmi dərəcəsi verilmişdir. Həmin ilin oktyabr ayında o, həbs olunmuş və güllələnmişdir.



Mirzə Cabbarın oğlu Cəlal Məmmədov (1918-1983) Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirsə də ədəbiyyata meyl etmişdir. Maarif Nazirliyində və "Azərnəşr"də məsul vəzifələrdə işləmiş, sonralar Teleradio Dövlət Komitəsində sədr müavini, "Kommunist" qəzetində redaktor müavini vəzifələrində calışmışdır. 1966-cı ildə "Azərbaycan" jurnalının baş redaktoru təyin edilmiş, 1975-ci ildən ömrünün sonunadək isə Kitab Ticarəti, Poliqrafiya və Nəşriyyat işləri üzrə Dövlət Komitəsi sədrinin birinci müavini vəzifəsində işləmişdir.

## Cabbar Əsgərzadə

Əsgərzadə Cabbar Əsgər oğlu 1885-ci ildə İrəvan şəhərində anadan olmuşdur.O, ilk təhsilini mollaxanada almış, on beş yaşından isə evlərdə kiçik yaşlı uşaqlara dərs deməklə məşğul olmuşdur. “Qafqaz” qəzetinin müxbirlərindən biri kimi jurnalistlik fəaliyyətinə başlamışdır. “Molla Nəsrəddin” məcmuəsində də şeir və məqalələrlə çıxış etmişdir. İrəvan qubernatorunun 21 yanvar 1914-cü il tarixdə Mirməhəmməd Mirfətullayev və Cabbar Əsgərzadəyə verdiyi icazəyə əsasən onlar həmin il fevralın 22-də satirik “Lək-lək” jurnalının ilk nömrəsini buraxmışdılar. “Lək-lək”in cəmisi 8 nömrəsi işıq üzü



görmüşdür. Dövri mətbuatda çıxan satirik şeirləri və publisistik yazıları onu təqiblərə məruz qoymuşdur. Digər tərəfdən, xəstəliyi ilə əlaqədar o, Cənubi Azərbaycanın Mərənd şəhərinə köçməyə məcbur olmuşdur və burada Əhmədiyyə məktəbində müəllim işləmişdir. Sonra o, Təbriz şəhərinə dəvət olunmuşdur. Burada uşaq bağçasının açılmasına kömək etmiş, kar və lal uşaqlar üçün məktəb təşkil etmiş (1922-1927), Şirazda uşaq evində pedaqoji fəaliyyətini davam etdirmişdir (1927-1933). Sonra Tehranda korlar və lallar üçün məktəb açmışdır. Burada “Zəban” adlı pedaqoji jurnal nəşr etmiş (1942), eyni zamanda ictimai, ədəbi və pedaqoji fəaliyyətini davam etdirmişdir. Onun çoxcəhətli yaradıcılığı - pedaqogika, poeziya, incəsənət, musiqi, mədəniyyət və səhiyyə ilə sıx bağlı idi. Ərəb, fars və rus dillərini mükəmməl bilmiş, xarici ölkə xalqlarının seçmə poeziyasından tərcümələr etmişdir. Əsərlərini Azərbaycan və rus dillərində yazmışdır. Lirik şeirlərini C.Əsgərzadə, Aciz, Bağçaban, satirik şeirlərini isə “Məhkəmə pişiyi”, “Noxtalı”, “Leyləyin yuvadibisi”, “Molla haray” və s. imzaları ilə çap etdirmişdir. Onun kiçik yaşlı uşaqlar və məktəblilər üçün yazdığı mənzum hekayələri də nəşr olunmuşdur. Maarif sahəsindəki xidmətlərinə görə Tehran Universiteti ona professor adı vermişdir.

Cabbar Əsgərzadə 1966-cı ilin payızında Tehranda vəfat etmişdir.

## Mirabbas Mirbağırov

Mirbağırov Mirabbas Mirhüseyn oğlu Mirbağırov təqribən 1880-1885-ci illər arasında İrəvan şəhərində doğulmuşdur. İrəvan gimnaziyasını bitirmişdir.

Mirabbas Mirbağırov gənc yaşlarından qardaşı Mirabdulla ilə birlikdə kitab ticarəti ilə məşğul olmuşdur. Qardaşlar İrəvanda "Umud" kitab mağazası açmışdılar. Onlar 1909-cu ildə Bakıya gəlmiş və 1914-cü ildə burada yeni kitab mağazası açmışdılar.

Mirabbas Mirbağırovun ilk yazısı 19 iyun 1905-ci ildə "Həyat" qəzetində dərc olunmuşdur. Onun 1905-1929-cu illər arasında 200-ə yaxın publisist məqaləsi, xəbəri, bədii tərcüməsi işıq üzü görmüşdür. İlk vaxtlar "Həyat" və "İrşad" qəzetləri ilə sıx əlaqələr quran Mirbağırov sonralar "Təzə Həyat", "Tərəqqi", "Yeni İrşad", "İqbal", "Sədayi-həqq" qəzetləri ilə də yaxından əməkdaşlıq etmişdir. Ən çox işlətdiyi gizli imzası "Nadi"dir.

Jurnalistlik fəaliyyətini sonrakı illərdə də davam etdirərək, Azərbaycan Cümhuriyyəti dönəmində "Azərbaycan", sovet hakimiyyəti dövründə "Kommunist", "Yeni yol" qəzetlərində, "Xalq maarifi", "Füqəra füyuzatı", "Maarif və mədəniyyət", "Azərbaycan Ali İqtisad Şurasının əxbarı", "Xalq müəllimi", "Qızıl qələm", "Əkinçi", "Maarif işçisi", "İqtisadi xəbərlər" jurnallarında məqalələri dərc edilmişdir.

Mirabbas Mirbağırov da İrəvanda teatrın özülünü qoyanlardan biridir.

Mirabbas Mirbağırovun 1913-1914-cü illərdə 6-sı orijinal, 1-i tərcümə olmaqla 7 kitabı nəşr edilmişdir. O, "Osmanlı tarixinin mühüm səhifələri" (Bakı, 1913), "Osmanlı hökumətinin qüdrətli günləri" (1913), "Tarix səhifələri. I. İslam pulları. II. Misir ölkəsi və tarixi" (1914), "Cənab Yusif və macərayi-məşhuru" (1914), "Osmanlı marşları, Vətən və millət nəğmələri" (1914) və başqa kitabların müəllifidir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə İrəvan quberniyası Həmyerlilər Cəmiyyətinin qərarına əsasən və Azərbaycan hökumətinin tapşırığı ilə 1919-cu ilin yanvarında yerli əhalinin problemlərini öyrənmək üçün M.Mirbağırovun rəhbərliyi ilə Naxçıvana nümayəndə heyəti göndərilmişdir. Əhali Azərbaycan Xalq Cümhuriyyətinin elçilərini böyük ruh yüksəkliyi ilə qarşılamışdı. 1919-cu il fevralın 22-də M.Mirbağırovun başçılıq etdiyi nümayəndə heyəti Naxçıvanda ingilis general-qubernatoru ilə görüşərək, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvanla bağlı mövqeyini onun diqqətinə çatdırmışlar. Naxçıvanda hakimiyyətin sonrakı taleyi ilə bağlı Cəfərqulu xanın iqamətgahında keçirilən görüşdə Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyəti ilə yanaşı, ingilis general-qubernatoru da iştirak eetmişdir. Azərbaycan hökumətinin nümayəndələri Cəfərqulu xanın başçılıq etdiyi hökuməti tanıdıqlarını bildirmişlər. Naxçıvanın könüllü olaraq Azərbaycan Xalq Cümhuriyyətinə birləşməsi haqqında tərtib olunan Aktın mətninin hazırlanmasında iştirak etmişdi. Siyasi, hərbi, iqtisadi, maddi və mədəni məsələlərə aid bəndlərdən ibarət akt hökumət və Milli Şura üzvləri, əhalinin nümayəndələri tərəfindən imzalanaraq, hökumət möhürü ilə təsdiq edilmişdi. Nümayəndə heyətinin Naxçıvanda gördüyü işlər Azərbaycan tarixinə “Mirbağırov missiyası” kimi daxil olmuşdur.

M. Mirbağırov sovet hakimiyyətinin ilk illərində ASSR Xalq Ərzaq Komissarlığı sistemində, 1923-cü ildən "Kommunist", 1924-cü ildən "Yeni yol" qəzetlərində, 1925-ci ildən 1929-cu ilədək "Maarif işçisi" jurnalında çalışmşdır.

Onun əsərləri indi də öz elmi dəyərini saxlayır. Bu əsərlər onun iqtisadçı, etnoqraf, coğrafiyaçı, sənətşünas, ədəbiyyatşünas, dilçi, pedaqoq, tarixçi kimi ensiklopedik biliyə malik olduğunu göstərir.

1930-cu ilin əvvəlində özünün və qardaşlarının ailəsi ilə birlikdə Türkiyəyə köçdüyü güman edilir.

# Teymur xan Makinski

Teymur xan Məhəmmədqulu xan oğlu Makinski 1874-cü ildə İrəvan şəhərində anadan olmuşdur. İrəvanda yaşayan Maku xanlarının törəmələrindən olan Makinskilər nəsli İrəvan xanlarının nəsil davamçıları İrəvanskilərlə yaxın qohum idilər. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olan Teymur xan Makinski İrəvan gimnaziyasını, sonra isə Varşava Universitetinin hüquq fakültəsini 1916-cı ildə birinci dərəcəli diplomla bitirmişdir.

Teymur xan Makinski XX əsrin əvvəlində Azərbaycanda milli azadlıq hərəkatının fəal iştirakçılarından biri olmuşdur. İctimai-siyasi xadim Teymur xan Makinski Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının, Zaqafqaziya Federasiyasının süqutundan sonra isə Azərbaycan Milli Şurasının üzvü olmuşdur.



Milli Şuranın 19 noyabr 1918-ci il tarixli "Azərbaycan Məclisi-Məbusanının (Parlamentinin) təsisi haqqında qanun"una əsasən, seçkisiz Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilmişdir. T.Makinski 1918 ilin iyun-oktyabr aylarında Azərbaycan hökuməti ədliyyə nazirinin müavini, oktyabrın 20-dən dekabrın sonunadək Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan hökuməti yanında diplomatik nümayəndəsi olmuşdur. O, İrəvan quberniyasında yaşayan azərbaycanlıları erməni zülmündən qorunması məqsədilə 1919-cu ilin yanvarında Bakıda təsis edilmiş İrəvan Quberniyası Həmyerliləri Cəmiyyətinin idarə heyətinin sədri seçilmişdir.

Teymur xan Makinski 1918-ci il dekabrın 26-dan 1919-cu il martın 14-ə qədər Fətəli xan Xoyskinin 3-cü hökumət kabinəsində ədliyyə naziri vəzifəsini icra etmişdir. O, 1919-cu ilin iyunundan 1920-ci ilin yanvarına qədər Azərbaycan hərbi məhkəməsinin sədri, 1920-ci ilin martından isə yenidən Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan hökuməti yanında diplomatik nümayəndəsi olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra 1920-ci il mayın 15-də İrəvandakı diplomatik nümayəndəliyin fəaliyyəti Ermənistan hökuməti tərəfindən dayandırılmışdır. Diplomatik nümayəndəliyin başçısı olduğu zaman Zəngibasarda yaşayan soydaşlarımıza maddi yardım göstərdiyinə görə, T.Makinskiyə qarşı Ermənistan prokurorluğu tərəfindən cinayət işi açılmış, lakin o, Gürcüstanın İrəvandakı daimi nümayəndəliyinin yardımı ilə İrəvanı gizlicə tərk edərək mayın 28-də Tiflisə qayıda bilmişdi.

Təəssüf ki, Teymur bəy Makinskinin sonrakı taleyi haqqında səhih məlumat yoxdur.

Teymur bəy Makinskinin əmisinin oğlu, 1908-ci ildə Peterburq Universitetinin hüquq fakültəsini bitirmiş Abbasəli bəy Makinski Azərbaycan hökumətinin İrəvandakı daimi nümayəndəliyində çalışmışdır. Rus, ingilis, fransız, və alman dillərini bildiyi üçün diplomatik danışıqlarda azərbaycanlıların hüquqlarını müdafiə etmişdir. Abbasəli bəy Makinski 1918-ci ilin payızında Naxçıvanda qurulan Araz-Türk Hökumətinin fəallarından olmuşdur.

## Rəşid bəy İsmayılov

Tanınmış publisist, tarixşünas-alim və pedaqoq Rəşid bəy Əsəd oğlu İsmayılov 1877-ci ildə İrəvan şəhərində anadan olmuşdur. İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. O, 1903-cü ildə "Şərqi-rus" qəzetində fəaliyyətə başlamışdır. Bununla yanaşı, Qafqazda və Rusiyada çap olunan rusdilli mətbuatda ("Sankt-Peterburqskiye vedomosti" və s.) məqalələr dərc etdirmişdir. Rəşid bəy İsmayılov bir il "Tiflisskiy listok" qəzetində çalışmışdır. Dövrün görkəmli şəxsiyyətləri Cəlil Məmmədquluzadə, Məhəmməd ağa Şahtaxtinski, Əhməd bəy Ağayev (Ağaoğlu), Əlimərdan bəy Topçubaşov və başqaları ilə sıx əlaqələri olmuş, onlarla birlikdə fəaliyyət göstərmişdir. "Şərqi-rus" qəzetinin nəşri dayandırıldıqdan sonra "Novoye obozreniye" qəzetinin müsəlman həyatı və Yaxın Şərq şöbələrinə rəhbərlik etmişdir. Rəşid bəy İsmayılov "Təzə zaman" adlı qəzet nəşr etdirmək üçün Qafqaz canişininə ərizə ilə müraciət etsə də, onun panislamist olmasını bəhanə gərirərək qəzetin nəşrinə icazə verilməmişdi.



Onun "Müxtəsər Qafqaz tarixi və Zaqafqasiyada zühur edən məşhur türk ədib və şairlərinin müxtəsərən tərcümeyi-halları" kitabı 1904-cü ildə Tiflisdə "Şərqi-rus" mətbəəsində Azərbaycan türkcəsində çap olunmuşdur. Bu kitabda Qafqazın, o cümlədən Azərbaycanın XIX əsr tarixinin bəzi məsələləri öz əksini tapmışdır. Rəşid bəy İsmayılov Zurab Antonovun "Koroğlu" pyesini gürcü dilindən azərbaycancaya çevirmiş və həmin əsər Tiflis teatrında tamaşaya qoyulmuşdu.

Rəşid bəy İsmayılov 1905-ci ildə "Təzə zaman" adlı qəzetin Azərbaycan dilində Tiflisdə nəşri üçün Qafqaz canişinіə müraciət etsə də onun vəsatəti rədd edilmişdi.

Rəşid bəy İsmayılov Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nazirlər Şurasında məsul vəzifədə çalışmışdır. 1919-cu il yanvarın 15-də Bakıda İrəvan quberniyasında yaşayan azərbaycanlıların fövqəladə iclası keçirilmiş və İrəvan quberniyası müsəlmanlarının Həmyerlilər Cəmiyyəti təsis edilmişdir. Rəşid bəy İsmayılov bu cəmiyyətin məsul katibi kimi səmərəli fəaliyyət göstərmişdir.

Rəşid bəy İsmayılov Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Bakıdakı 18 nömrəli məktəbdə tarix müəllimi işləmişdir.

Azərbaycan tarixinin elmi mənbələr əsasında araşdırılması sahəsində A.A.Bakıxanovdan sonra ikinci təşəbbüsü Rəşid bəy İsmayılov göstərmişdir. Onun Azərbaycanın tarixinin qədim dövrlərdən başlayaraq 1920-ci ilin aprelində sovet hakimiyyətinin qurulmasınadək olan dövrünü işıqlandıran "Azərbaycan tarixi" adlı kitabı 1923 ildə Bakıda çap olunmuşdur. Əsərdə "Mavərayi-Qafqazın elani-istiqlalı" bölməsi Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ərəfəsindəki vəziyyətə, "Azərbaycan Cümhuriyyəti" bölməsi isə bilavasitə onun qurulmasına və fəaliyyətinə həsr edilmişdir. Bu kitabda Qafqazın, o cümlədən Azərbaycanın XIX əsr tarixinin bəzi məsələləri öz əksini tapmışdır.

Rəşid bəy İsmayılov1941-ci ildə Bakıda vəfat etmişdir.

Rəşid bəy İsmayılovun "Azərbaycan tarixi" əsəri 1993-cü ildə "Azərnəşr" tərəfindən kiril əlifbası ilə yenidən çap edilmişdir.

Rəşid bəyin böyük qardaşı Kərim bəy İsmayılov 1892-ci ildə Qori Müəllimlər Seminariyasını bitirmiş, "Molla Nəsrəddin" jurnalının əməkdaşı olmuşdu.

# Əli Məhzun

Əli Hacı Zeynalabdin oğlu Rəhimov 1886-cı ildə İrəvan şəhərində anadan olmuşdur. Mollanəsrəddinçi, şair, publisist özünə "Məhzun" təxəllüsü götürmüşdür. Yüksək erudisiyaya malik ziyalı, istedadlı qələm sahibi Əlli Məhzun hələ yeniyetmə çağlarından ədəbiyyata maraq göstərmişdir. Əsərləri "Molla Nəsrəddin", "Məzəli", "Babayi-Əmir" jurnallarında, "İqbal", "Sədayi-həqq" qəzetlərində və s. mətbuat orqanlarında dərc edilmişdir.



Əli Məhzun "Anaş qurbağa", "Yetim cücə" imzaları ilə yazılarını dərc etdirirərək özünü qaragüruhçulardan qorumağa çalışırdı. 25 mart 1913-cü ildə Əli Məhzun Rəhimzadə və Əsgər Axundov İslam Dram Şirkəti adlı bir şirkətin fəaliyyəti üçün İrəvanın rəsmi dairələrindən icazə almışdılar. Öz ətrafında gənc aktyorları birləşdirən bu şirkətin aktyorları qısa müddət ərzində "Kimdir müqəssir?", "Pul dalınca", "Ac həriflər", "Sevgili övlad", "Millətpərəstlər, yaxud ürəfa qiyafəsində süfəha", "İbrahim bəy, yaxud istibdad qurbanı", "Aldandılar", "Səfalətin sonu" əsərlərini tamaşaya qoymuşdular.

Əli Məhzunun müdir və redaktorluğu və İrəvanın nüfuzlu ziyalılarından Həsən Mirzəzadə Əliyevin naşirliyi ilə 1917-ci il yanvarın 1-də "Bürhani-həqiqət" məcmuəsi işıq üzü görmüşdür. İstiqaməti ədəbi, siyasi, tarixi, elmi və fənni olan "Bürhani-həqiqət"in işıq üzü görməsi İrəvanın ictimai-siyasi həyatında, ədəbi mühitində mühüm hadisə olmuşdur. İrəvandakı "Luys" mətbəəsində ayda iki dəfə nəşr edilən məcmuənin cəmi 9 nömrəsi işıq üzü görmüşdür. Əli Məhzun İrəvan şəhərində yaşayan müxtəlif ixtisaslı ziyalıları, İrəvan Müəllimlər Seminariyasının tələbələrini xalqın maariflǝndirilǝsi məqsədilə məcmuə ilə əməkdaşlığa cəlb etmişdi. "Bürhani-həqiqət" öz oxucusunu cəhalət zülmündən xilas etməklə yanaşı, baş verən hadisələri həqiqətin dili ilə izah etmək, ayrı-ayrı partiyaların və qurumların əsl məqsədini kütlələrə izah etmək, qətl və qarətlərin, kütləvi qırğınların arxasında duran qüvvələri göstərmək, ermənilərin İrəvandakı maddi-mədəniyyət abidələrimizin tarixini saxtalaşdırmaq cəhdlərinin qarşısını almaq kimi bir missiyalar da daşıyırdı.

Ermənilərin1918-1920-ci illərdə İrəvanda azərbaycanlılara qarşı törətdikləri qırğınlar zamanı Əli Məhzun şəhəri tərk edərək Azərbaycanda məskunlaşmış, müxtəlif mətbuat orqanlarında fəaliyyət göstərmişdir.

Əli Məhzun 1934-cü ildə vəfat etmişdir.

# Mirzə Məmmədvəli Qəmərlinski

Mirzə Məmmədvəli Qəmərlinski İrəvanda təhsilin inkişafında xüsusi xidmətləri olan pedaqoqlardan olmuşdur. Onun atası Əli Qəmərlinski çar ordusunun, 1915-ci ildə Türkiyəyə mühacirət edən böyük oğlu Hüsüeynəli Qəmərli isə türk odusunun generalı olmuşdur. İkinci oğlu Əli Qori müəllimlər seminariyasını, digər övladları Paşa, Adil və Mahmud isə gimnaziyanı bitirərək müəllim işləmişlər. Məmmədvəli Qəmərlinskinin özü 1898-ci ildə İrəvanda rus-tatar məktəbini bitirmiş, 1900-cü ilin martında İrəvan quberniya məclisində imtahan verərək müəllim adı qazanmışdır. O, 1901-1911-ci illərdə İrəvanda rus-tatar məktəbinin müəllimi olmuşdur. Onun yazdığı “Atalar sözü” kitabı 1889-cu ildə İrəvanda “Edilson” mətbəəsində çap olunmuşdur. 1907, 1908 və 1911-ci illərdə çap edilən “Ana dili” dəsrsliyinin müəlliflərindən biri Mirzə Məmmədvəli Qəmərlinski olmuşdur. Mirzə Məmmədvəli 1906-cı ildə Bakıda keçirilən müəllimlərin qurultayında iştirak edərkən Nəriman Nərimanov onu İrəvan Çuxurunun görkəmli maarifpərvərlərindən biri kimi Mirzə Ələkbər Sabirlə tanış etmiş. İrəvanda mövcud olan məktəblər haqqında şairə məlumat vermişdi. Mahmud Qəmərlinin atası haqqında yazdığı “Atamın xatirələrindən” adlı yazıda həmin hadisəni atasının dilindən təsvir edərək yazır: “Rəhmətlik Sabirin sevincdən gözləri yaşardı və mənə xüsusi meyl, rəğbət bəsləyərək uzun-uzadı dərdləşdik. Mən Sabiri İrəvana qonaq dəvət etdim. Lakin ikimiz də bir dərddə, bir vəziyyətdə idik. Bizim İrəvan xərcimizi N.Nərimanov ödədi. Qurultay qurtarandan sonra biz İrəvana getdik. Rəhmətlik Sabir Həşim bəy Nərimanbəyov, Həmid bəy Şahtaxtinski, Sultanov, Qaziyevlər və başqaları ilə tanış olarkən dedi: “Mirzə, sizin bu müəllimlər, məktəblər, dərs üsulunuz, xüsusən də müsəlman qız məktəbi məni valeh etdi. Yaxın gələcəkdə bizim millətin də ön sırada olacağına əmin olmaq olar”.



**Məhəmməd Məhərrəmov**

Məhəmməd Məhərrəmov 1895-ci ildə İrəvan quberniyasının Qəmərli kəndində tacir Hacı Bayram və Ruhiyə xanımın ailəsində anadan olub. 1914-cü ildə İrəvan gimnaziyasını bitirib, gənc yaşlarından İrəvan azərbaycanlılarının təmsilçilərindən biri kimi tanınıb. Peterburq İmperator Universitetinin tibb fakültəsində oxuyub. Sonradan təhsilini Moskva Universitetində davam etdirib.



Fevral inqilabından (1917) sonra təhsilini yarımçıq qoyub Tiflisə qayıtmış, burada "Hümmət" sosial-demokrat təşkilatına daxil olmuşdur. Məhərrəmov Müsəlman sosialist blokundan Zaqafqaziya seyminə seçilmiş, Zaqafqaziya Demokratik Federativ Respublikasının süqutundan (1918, 26 may) sonra Azərbaycan Milli Şurasının (1918, 27 may) üzvü olmuşdur. İstiqlal bəyannaməsinin qəbul olunmasında iştirak etmişdir. Milli Şuranın "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun "una (1918, 19 noyabr) əsasən, seçkisiz Azərbaycan Parlamentinin tərkibinə daxil edilmişdi. Azərbaycan Hökumətinin Parlamentin ağsaqqallar Şurası ilə birgə iclasında (1918, 28 dekabr) Paris Sülh Konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin müşaviri (Mir Yaqub Mehdiyev və Ceyhun bəy Hacıbəyli ilə birlikdə) təyin olunmuşdu. Aprel işğalından (1920) sonra Məhərrəmov Vətənə qayıda bilməyərək, Fransada qalmış, Sorbonnada iqtisadiyyat sahəsində ali təhsil almışdı. 1927 ildən bankda çalışmış, sonralar 18-19-cu əsrlər fransız ədəbiyyatı bukinist mağazası açmışdı. İkinci dünya müharibəsindən sonra vətənə qayıtmaq ümidini itirən Məhərrəmov 1948 ildə Fransa təbəəliyini qəbul etmişdi. O, 1972 və 1975 illərdə Bakıda olmuş, şəhərin muzey və kitabxanalarına Azərbaycan mədəniyyətinə aid qiymətli materiallar bağışlamışdır.

Məhəmməd Məhərrəmov 1982-ci ildə Parisdə, 87 yaşında vəfat edib.

## Nəriman bəy Nərimanbəyov

Nəriman bəy Nərimanbəyov İrəvanda maarif fədaisi kimi ad qazanan Haşım bəyin ailəsində 1889-cu ildə anadan olmuşdur. Haşım bəy İrəvanda azərbaycanlılar üçün ana dilində məktəblərin yaranmasında və xeyriyyə cəmiyyətinin təşkilində fəal iştirak etmişdir. Haşım bəyin Azərbaycan məktəbləri üçün başqa müəllimlərlə birlikdə tərtib etdiyi "Ana dili" kitabı hələ 1907-ci ildə İrəvanda, sonralar isə üç dəfə Tiflisdə çapdan çıxmışdır. Onun mətbuatda xeyli məqaləsi, teatr tamaşaları haqqında resenziyaları çap olunmuşdur.



Nəriman bəy orta təhsilini İrəvan gimnaziyasında başa vuraraq əvvəlcə Moskva Universitetinin fizika-riyaziyyat fakültəsində, sonra isə Xarkov universitetinin hüquq fakültəsində təhsil almışdır. N.Nərimanbəyov burada Azərbaycan Tələbə Həmyerlilər Təşkilatının rəhbərliyinə seçilmiş və inqilabi fəaliyyətini davam etdirmişdir.

Ali təhsilini 1915-ci ildə başa vurub İrəvana qayıdan Nəriman bəy Nərimanbəyov vəkil işləməklə yanaşı, İrəvan Müsəlman Xeyriyyə Cəmiyyətinin rəhbərlərindən biri olmuşdur.

1917-ci ildə Rusiyada fevral inqilabından sonra Bakıya köçən N. Nərimanbəyov Müsavat partiyasının sıralarına daxil olmuşdur. O, həmin ilin aprelində Bakıda çağırılan Qafqaz Müsəlmanlarının qurultayında, oktyabrında isə Türk Ədəmi-Mərkəziyyət Müsavat Partiyasının birinci qurultayında fəal iştirak etmişdir.

1918-ci ilin fevralında Nəriman bəy Nərimanbəyov Zaqafqaziya Seyminin üzvü seçilmişdir. O, həmin il fevralın 28-də Seym tərəfindən təsdiq olunmuş Müsəlman fraksiyasının tərkibindəki Müsavat və bitərəflər qrupunun üzvü, 1918-ci il mayın 28-də isə qəbul edilən Azərbaycanın İstiqlal bəyannaməsini imzalayanlardan biri olmuşdur.

N.Nərimanbəyov həmin il dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinə üzv seçilmiş, parlamentdə Müsavat fraksiyasının tərkibinə daxil olmuşdur.

Nəriman bəy Nərimanbəyov Azərbaycan Respublikası Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyovun təşkil etdiyi kabinədə (14.IV.1919) dövlət nəzarətçisi vəzifəsini icra etmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Nəriman bəy Nərimanbəyov müxtəlif idarələrdə hüquq məsləhətçisi və vəkil işləmişdir.

Öz dövrünün tanınmış siyasi və ictimai xadimi olan Nəriman bəy Nərimanbəyov 1937-ci ildə Stalin repressiyasının qurbanı olmuşdur.

## Əkbər ağa Şeyxülislamov

Dövrünün tanınmış siyasi və ictimai xadimi Əkbər ağa İbrahim oğlu Şeyxülislamov 1891-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Orta təhsilini İrəvan gimnaziyasında başa vurduqdan sonra, 1912-ci ildə Peterburq Yol Mühəndisliyi İnstitutuna daxil olmuş, 1917-ci ildə Rusiyada fevral inqilabından sonra ali təhsilli mütəxəssis kimi vətənə qayıtmışdır.



1918-ci ilin fevralında Ə.Şeyxülislamov Zaqafqaziya Seyminin üzvü seçilmişdir. O, həmin il fevralın 28-də Seym tərəfindən təsdiq olunmuş Müsəlman fraksiyasının tərkibindəki Hümmət partiyasına daxil olmuşdur. Ə.Şeyxulislamov Zaqafqaziya Seymi tərəfindən Türkiyə hökuməti ilə sülh danışıqları aparmaq üçün 1918-ci il martın 1-də yaradılmış nümayəndə heyətinin tərkibinə daxil olmuşdur. O, həmçinin Zaqafqaziya hökumətində daxili işlər nazirinin müavini vəzifəsini icra etmişdir.

Ə.Şeyxülislamov 1918-ci il mayın 28-də qəbul edilən Azərbaycanın İstiqlal bəyannaməsini imzalayanlardan biri olmuşdur. O, Fətəli xan Xoyskinin təşkil etdiyi birinci hökumət kabinəsində əkinçilik naziri vəzifəsini tutmuşdur. Ə.Şeyxülislamov 1918-ci il dekabrın 7-də Bakıda açılmış Azərbaycan parlamentinə üzv seçilmişdir. O, parlamentdə sosialist fraksiyasının tərkibinə daxil edilmişdir. Ə. Şeyxülislamov parlamentin açılışında daxil olduğu fraksiyanın adından hərarətli nitq söyləmişdir.

O, görkəmli siyasi və ictimai xadim Əlimərdan bəy Topçubaşovun rəhbərliyi altında Azərbaycan Respublikası nümayəndə heyətinin tərkibində 1919-cu ildə açılaçaq Versal sülh konfransında iştirak etmək üçün Parisə yola düşmüş və 1920-ci ilin aprelində Azərbaycan müstəqilliyini itirdikdən sonra orada qalmışdır.

Əkbər ağa Şeyxülislamov 20-ci illərdə Azərbaycandan II İnternasionalın üzvü olmuşdur. Onun İkinci Dünya müharibəsinə qədər Parisdə rusca nəşr olunan "Azərbaycan" jurnalının 2-ci sayında dərc edilmiş "Azərbaycan necə quruldu" adlı məqaləsi bu gün də öz aktuallığını saxlayır.

Əkbər ağa Şeyxülislamov 1961-ci il martın 2-də vəfat etmiş və Parisin yaxınlığındakı müsəlman qəbiristanlığında dəfn olunmuşdur.

## Bağır bəy Rzayev

Bağır Kərbəlayı Ələsgər oğlu Rzayev (1891, İrəvan – 1927, Bakı) — Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin baş katibi, Araz Türk Cümhuriyyətinin inzibati naziri, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının üzvü, Zaqafqaziya Seyminin və Zaqafqaziya Seyminin Müsəlman fraksiyası üzvü.

Bağır bəy Rzayev 1891-ci ildə İrəvan şəhərində anadan olmuşdu. Gimnaziyada oxumuşdu. 1911-ci ildə Moskva Universitetinin hüquq fakültəsinə daxil olmuşdu.

Aprel işğalından sonra mühacirət həyatı yaşamış daha sonra Azərbaycana geri dönmüşdür. 1927-ci ildə siyasi təzyiqlərə dözməmiş, intihar etmişdir.



Bağır Rzayev Müsəlman Sosialist Blokunun üzvü olaraq Zaqafqaziya Seyminə üzv seçilmiş, burada müsəlman fraksiyasının və Müsəlman Sosialist Bloku qrupunun üzvü olmuşdur.

27 may 1918-ci il tarixində Müsəlman Sosialist Bloku sıralarından Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının üzvü seçilmişdir.

Azərnbaycan Milli Şurasının 1918-ci il mayıan 31-də keçirilən iclasında İrəvanın yeni yaradılan Ermənistan Respublikasına paytaxt kimi güzəştə gedilməsinə etiraz edən üç deputadan biri olmuçdur.

Bağır bəy Rzayev 7 dekabr 1918-ci il tarixində Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının sıralarından birbaşa Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti üzvlüyünə qəbul olunmuşdur. Parlamentin 15 dekabr 1918 tarixli sayca 2-ci iclasında üzvlüyü səsə qoyularaq təsdiqlənmişdir. O, parlamentdə Sosialistlər fraksiyasını təmsil etmişdir.

28 yanvar 1919-cu ildə Bağır bəy Rzayev parlamentdən xaric edilir və əvəzinə İbrahim Əbilov üzv seçilir.

Bağır bəy Rzayev 15 may 1919-cu il tarixində üzvlükdən çıxan Məhəmməd Məhərrəmovun əvəzinə Sosialistlər fraksiyası tərəfindən parlament üzvlüyünə namizəd göstərilərək üzv seçilir.

Bağır Kərbəlayı Ələsgər oğlu Rzayev və ya Məmmədbağır Rzayev və ya Məmmədbağır Rzayev və ya Bağır bəy Rzayev (1891, İrəvan – 1927) — Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin baş katibi, Araz Türk Cümhuriyyətinin inzibati naziri, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının üzvü, Zaqafqaziya Seyminin və Zaqafqaziya Seyminin Müsəlman fraksiyası üzvü.

Azərnbaycan Milli Şurasının 1918-ci il mayıan 31-də keçirilən iclasında İrəvanın yeni yaradılan Ermənistan Respublikasına paytaxt kimi güzəştə gedilməsinə etiraz edən üç deputadan biri olmuçdur.

## Yunis Nuri



İrəvanda Azərbaycan teatrının formalaşması Yunis Nurinin adı ilə bağlıdır. 1878-ci ildə İrəvan şəhərində anadan olmuş Yunis Hacı Süleyman oğlu Süleymanov fitri istedadlı aktyor, teatr təşkilatçısı və rejissor kimi ömrünü İrəvan teatrına həsr etmişdir.

İrəvan İslam Dram Şirkətinin aktyorları Yunis Nurinin rejissorluğu ilə 1916-cı il mayın 26-da Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" əsərini, iyunun 9-da isə "İran faciələri"ni və "Qız istəmək" məzhəkəsini, sentyabr ayında isə "Arşın mal alan" operettasını tamaşaya qoymuşdular. 1917-ci ildə isə teatr həvəskarları yazıçı Rza Zakinin (Lətifbəyov) "Sultan Əbdülhəmidin xəli" əsərini "Zülm və istibdadın axırı" adı altında səhnələşdirmişd ilər.1918-1920-ci illərdə ermənilər İrəvan şəhərində kütləvi qırğınlar törətmişdilər. Bu kütləvi qırğınlardan qaçıb canını qurtara bilən İrəvanın həvəskar aktyorlarının böyük bir qismi, başda Yunis Nuri olmaqla, İranın Xoy şəhərinə mühacirət etmişdilər. Həmin truppa üç ilə qədər orada qalmış, truppanın üzvləri çörəkpulu qazanmaq üçün müxtəlif işlərdə çalışsalar da, hərdən teatr tamaşaları da göstərmişdilər .

1921-ci ilin ikinci yarısından etibarən İrana, Türkiyəyə və Azərbaycana sığınmış irəvanlı qaçqınlar tədricən geri qayıtmağa başlamışdılar. İrəvan şəhərində azərbaycanlıların mədəni-maarif problemləri əsasən 1921-ci ilin dekabrında yaradılan Türk klubu ətrafında birləşən azərbaycanlı ziyalıların vasitəsi ilə həll edilirdi. 1922-ci ilin fevralından Mərkəzi türk klubu adlanan klubun nəzdində Yunis Nurinin başçılığı ilə həvəskar artistlərin cəmləşdiyi Türk teatr truppası fəaliyyət göstərirdi. 1923-cü ilin əvvəlində teatr dərnəyinin nizamnaməsi geniş müzakirə edilir və qəbul olunur 1924-cü ilin may ayında Mərkəzi Türk klubu nəzdindəki dram dərnəyinə müstəqil teatr truppası statusu verilir. Türk truppasının tamaşaları Mərkəzi türk klubunda hazırlanır və orada da nümayiş etdirilirdi.

1928-ci il mart ayının 15-də Ermənistan hökumətinin qərarı ilə səyyar tipli İrəvan Dövlət Türk (Azərbaycan) Dram Teatrı yaradılmışdı. Teatr truppasının formalaşmasına rəhbərliyi peşəkar aktyor Yunis Nuri etnişdir. 1950-ci ildə vəfat edən Yunis Nurinin həyat və fəaliyyətinə həsr edilmiş kitablar və məqalələr yazılmışdır.

## Mustafa bəyTopçubaşov

Topçubaşovlar nəsli Azərbaycan tarixinə Sankt-Peterburq Universitetinin ilk azərbaycanlı professoru Mirzə Cəfər Topçubaşov (1784-1869) və Azərbaycan Xalq Cümhuriyyəti ilk parlamentinin sədri Əlimərdan bəy Topçubaşov (1862-1934) kimi görkəmli şəxsiyyətlər bəxş etmişdir. Bu nəslin daha bir parlaq nümayəndəsi Mustafa Ağabəy oğlu Topçubaşov 1895-ci ildə İrəvanda doğulmuşdur. Cərrah, ictimai xadim, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan EA-nın və SSRİ Tibb EA-nın həqiqi üzvü, Bolqarıstan EA-nın müxbir üzvü, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı olmuşdur. Orta təhsilini İrəvan gimnaziyasında almış, sonra 1919-cu ildə Kiyev Dövlət Universitetinin tibb fakültəsini bitirmişdir.



M.A.Topçubaşov 1920-30-cu illərdə Azərbaycan Dövlət Tibb Universitetində cərrahiyyə klinikasında ordinator və assistent olmuşdur. 1930-1975-ci illərdə Azərbaycan Dövlət Tibb Universitetinin cərrahiyyə kafedrasının müdiri, eyni zamanda 1945-1948-ci illərdə EA-nın Eksperimental Təbabət İnstitutuna rəhbərlik etmişdir. M. Topçubaşov 7 monoqrafiya, 5 cilddə “Xüsusi cərrahlıq” dərsliklərinin, ümumilikdə 160 elmi işin müəllifidir. Onun redaktəsi ilə kombinasiyalı ağrısızlaşdırma ilə bağlı üç elmi iş toplusu çap olunmuşdur. Əsas elmi tədqiqatları “Ürək-damar xəstəlikləri və onların profilaktikası”, “Xüsusi cərrahlıq”, “Yad cisimləri çıxaran aparat və onun tətbiqi”, “Normal hipertenziya və onun cərrahi müalicəsi”, “Uzunmüddətli analgeziyanın tibbdə tətbiqi” əsərləridir. M. Topçubaşov Ümumittifaq Cərrahlar Cəmiyyətinin, Azərbaycan Cərrahlar və Uroloqlar Cəmiyyətinin fəxri sədri olmuşdur. Dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, 1955-1959-cu illərdə Ali Sovetin sədri olmuşdur. Bir sıra orden və medallarla təltif olunmuşdur.

Mustafa bəy Topçubaşov 1981-ci ildə Bakıda vəfat etmişdir. Azərbaycan EA-nın Elmi-Tədqiqat Eksperimental Klinik Təbabət İnstitutuna və küçələrdən birinə onun adı verilmişdir.

Onun oğlu İbrahim Topçubaşov tibb elmləri doktoru, məşhur cərrah olmaqla bərabər , həm də bəstəkar olmuşdur.

## Həbib bəy Səlimov

Həbib bəy Səlimov 1881-ci il fevralın 8-də İrəvan şəhərində anadan olmuşdur. Atası Hacı Yusif bəy İrəvan quberniyasında məhkəmə iclasçısı vəzifəsində çalışmışdır. Həbib bəy İrəvan gimnaziyasını bitirmişdir. O, 1900-cü ilin avqustunda orduya könüllü yazılaraq Yelizavetpol (Gəncə) süvari alayında xidmət etmiş, unter-zabit rütbəsi almışdır. 1902-ci ildə Tiflisdə süvari məktəbini bitirəndən sonra Üçüncü Qafqaz Atıcı Batalyonunda xidmətə başlamışdır. 1905-ci ildə batalyon komandirinin yavəri, 1907-ci ildə elə həmin hərbi hissədə üçüncü rotanın komandiri təyin olunmuşdur. Həmin ilin sentyabrında «Müqəddəs Vladimir» ordeni ilə təltif edilmişdir. Həbib bəy 1908-1910-cu illərdə Beşinci Qafqaz Atıcı Batalyonunun tərkibində Naxçıvanın Culfa sərhədlərində xidmət etmişdior. 1912-ci ildə kapitan rütbəsi almışdır. Daha sonra Peterburqda Baş Qərargahın Nikolayev Hərbi Akademiyasını bitirmişdir.



O, 1918-ci il martın 14-dən Müsəlman korpusunda xidmətə başlamışdır. Sonradan korpusun üç süvari alayından ibarət briqadasının qərargah rəisi təyin edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Səlimov Qafqaz İslam Ordusunun tərkibində daşnak-bolşevik qoşunlarına qarşı döyüşlərdə fəal iştirak etmişdir. Onun komandanlığı altında formalaşdırılan Müsüslü dəstəsi Müsüslü, Kürdəmir və Karrar ətrafındakı döyüşlərdə daşnak-bolşevik hərbi birləşmələri üzərində parlaq qələbə qazanmışdır. 1918 il iyulun ortalarında Müsüslü dəstəsinin bazasında yaradılan Cənub qrupu Həbib bəyin komandanlığı altında Bakı ətrafına qədər şərəfli döyüş yolu keçmişdir. 1918 il noyabrın 15-də Hərbi Nazirliyinin 2 nömrəli əmrilə Səlimov Azərbaycan ordusunun Ümumi qərargahının və nazirliyin dəftərxanasınm rəisi təyin edilmişdir. 1919 il fevralın 28-də Nazirlər Şurasının qərarı ilə Həbib bəy general-mayor rütbəsinə layiq görülmüşdür.

1919-cu ilin iyul ayında briqada generalı Həbib bəy Səlimovun komandanlığı ilə Muğanda və Lənkəranda Azərbaycan milli hökumətini tanımaq istəməyən malakan və rus-erməni silahlı qüvvələri darmadağın edilmişdir.

1920 il fevralın 17-də Həbib bəy Səlimov hərbi nazirin əmri ilə Azərbaycan ordusu qərargahının yenidən qurulması üçün yaradılmış komissiyamn sədri təyin edilmişdir. Azərbaycan ordusunun vahid qərargahının yaradılmasından sonra Həbib bəy onun rəisi təyin edilmişdir.

Həbib bəy Səlimovun başlıca xidmətlərindən biri 1920-ci ilin mart-aprel aylarında uğurla keçirilmiş Qarabağ əməliyyatıdır. Bu əməliyyat zamam dövlətə xəyanət edərək, silahlı qiyam qaldırmış erməni-daşnak silahlı birləşmələrinə ağır zərbə vurulmuş, bölgədə Azərbaycanın suveren hüquqları bərpa edilmişdir.

Həbib bəy Səlimov 1920-ci il aprel işğalından sonra ordu sıralarından istefa vermişdir. Həbib bəy 1920-ci ilin mayında Naxçıvana hərbi komissar təyin olunmuşdur. Həmin il sentyabrın 1-də Həbib bəy həbs olunmuş, dekabrın 30-da güllələnmişdir.

Başı hərbi işlərə qarışan Həbib bəy ailə qurmağa macal tapmamışdır.

## Abbasqulu bəy Şadlinski

Abbasqulu bəy Xanbaba bəy oğlu Şadlinski 24 fevral 1886-cı ildə İrəvan quberniyasının Böyük Vedi kəndində anadan olmuşdur. Uşaq ikən atasını itirmişdir.

İkisinifli rus-tatar məktəbini bitirmişdir. Bir müddət mirab işləmişdir.

1902-ci ildə atadanqalma kiçik torpaq sahəsini əkib-becərməklə məşğul olmuşdur. Rusiyada 1905-1907, İranda 1905-1911-ci illər inqilabları ictimai-siyasi dünyagörüşünün formalaşmasına mühüm təsir göstərmişdir. Fevral inqilabından (1907) sonra Şadlinski həyatını xalq işi uğrunda mübarizəyə həsr etmiş, kommunistlərə rəğbət bəsləmişdir.



1918-ci ilin əvvəllərində Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur və digər ərazilərdə daşnak-erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımlarının baş alıb getdiyi bir şəraitdə xalq içərisində böyük nüfuzu olan Şadlinski Vedidə erməni-daşnak quldur dəstələrinə qarşı könüllü xalq birləşməsi – gələcək "Qırmızı tabor"u təşkil etmişdi.

O, 1918-1920-ci illərdə Vedibasarda daşnaklara qarşı döyüşən könüllü birliklərin komandanı olmuşdur. 1920-ci ilin iyulunda Şadlinskinin əmri ilə Vedibasar və Zəngibasar əhalisinin əksər hissəsi ilə İran ərazisinə keçərək, əvvəlcə Xoy şəhəri yaxınlığında, sonra isə Mərənd şəhəri ətrafında mövqe tutmuşdular.

28 iyul 1920-ci ildə Naxçıvanda sovet hakimiyyəti elan olunduqdan sonra Hərbi İnqilab Komitəsinin və Nəriman Nərimanovun dəvətini qəbul edərək, sentyabrın 17-də 200 nəfərlik dəstəsi ilə Naxçıvana gəlmişdi.

Onun başçılıq etdiyi “Qırmıxı tabor” dəstəsi 1921-ci ilin fevralından aprelin əvvəllərinə kimi İrəvanda daşnak qiyamının yatırılmasında qəhrəmanlıq göstərmişdi. Daşnaklarla döyüşlərdə göstərdikləri şücaətə görə, Şadlinski başda olmaqla, "Qırmızı tabor"un 19 nəfər üzvü Ermənistan SSR-nin "Qırmız bayraq" ordeni ilə təltif olunmuşdur.

1921-ci ilin yayınada Şadlinskinin döyüşçüləri Dərələyəz və Zəngəzurda daşnak quldurlarının darmadağın edilməsində qəhrəmanlıq göstərmişdilər.

Bundan sonra Vediyə qayıdan Şadlinski 1922-1928-ci illərdə Ermənistanda bir sıra məsul təsərrüfat vəzifələrində çalışmış, sonra isə burada yaradılan Dəvəli sement zavodu tikintisinin rəhbəri təyin olunmuşdur.

Düşmənləri tərəfindən 1930-cu ilin fevral ayında öldürülmüşdür.

# Əziz Əliyev

Əziz Məmmədkərim oğlu Əliyev 1897-ci ildə İrəvanda anadan olmuşdur. İlk təhsilini İrəvanda Abdulla bəy Muğanlinskinin pansionatında almışdır. O, İrəvan gimnaziyasını 1917-ci ildə qızıl medalla bitirdikdən sonra Peterburqda Hərbi-Tibb Akademiyasına daxil olmuşdur. 1918-ci ildə ermənilərin İrəvanda törətdikləri qırğınlarla bağlı o, ailəsini əvvəlcə Naxçıvanın Şahtaxtı kəndinə, oradan isə İrana aparmağa məcbur olmuşdur. 1921-ci ildə yenidən Şahtaxtiya qayıdaraq iki il orada həkim köməkçisi işləmişdir. 1923-cü ilin mayında Bakıya köçmüş və Xalq Komissarları Şurasında işləmişdir. Bununla yanaşı Tibb İnstitutunda təhsil almış və oranı 1927-ci ildə bitirmişdir.



1928-1930-cu illərdə Xalq Səhiyyə Komissarlığında müalicə şöbəsinin müdiri və Klinik İnstitutun direktoru vəzifəsində çalışmışdır. 1932-1934-cü illərdə Tibb İnstitutunun direktoru, sonra isə Bakı şəhər səhiyyə şöbəsinin rəisi işləmişdir. 1936-1937-ci illərdə Tibb İnstitutunun direktoru və ADU-nun rektoru vəzifələrində çalışmış, həmin ildə doktorluq işini müdafiə etmişdir. 1938-1939-cu illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, 1939-1941-ci illərdə xalq səhiyyə komissarı, 1941-ci ilin martından 1942-ci ilin sentyabrınadək Azərbaycan KP MK-nın katibi, 1948-ci ilin dekabrınadək isə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində işləmişdir. 1949-1950-ci illərdə İctimai Elmlər Akademiyasında dinləyici, sonra isə ÜİK(b)P MK-nın inspektoru olmuşdur. 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləmişdir. O zaman Azərbaycan KP MK-nın birinci katibi olan Mir Cəfər Bağırov Əziz Əliyevə qarşı qısqanclıq edərək onun vəzifədən uzaqlaşdırılmasına nail olmuşdur. Ə.Əliyev 1952-1956-cı illərdə Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru və Sabunçu rayon xəstəxanasında baş həkimin müavini, 1956-cı ildən ömrünün sonunadək Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru işləmişdir.

Əziz Əliyev dəfələrlə SSRİ, RSFSR, Azərbaycan SSR və Dağıstan MSSR Ali Sovetlərinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. O, 1962-ci ilin iyul ayının 27-də vəfat etmiş Fəxri xiyabanda dəfn olunmuşdur. Azərbaycanda və Dağıstanda bir sıra küçələr onun adı ilə adlandırılmışdır.

Qızı Zərifə Əliyeva Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyevin həyat yoldaşı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin anası Zərifə xanım 1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat etmişdir. Onun cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbiri yanında dəfn olunmuşdur.

Böyük oğlu Tamerlan Əliyev tibb elmləri doktoru, professor, respublikanın baş terapevti idi. Uzun müddət Tibb Universitetində daxili xəstəliklər kafedrasının müdiri, müdafiə şurasının sədri olmuşdur.

Kiçik oğlu Cəmil Əliyev tibb elmləri doktoru, professordur. Azərbaycan Milli Elmlər Akademiyasının, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimidir. Cəmil Əliyev Azərbaycan Respublikası Prezidentinin Tibb Xidmətinin rəisi, Milli Onkologiya Mərkəzinin baş direktorudur. Akademik Cəmil Əliyevin elmi əsərləri təkcə respublikamızda deyil, onun hüdudlarından kənarda da geniş yayılıb, müəllifinə nüfuz qazandırıb.

# Maqsud Məmmədov

Maqsud Məmməd oğlu Məmmədov 1897-ci ilin dekabrında İrəvan şəhərində anadan olmuşdur. İrəvanın məşhur ziyalılarından olan Abbas Məhəmmədzadənin qardaşı oğludur. İrəvan kişi gimnaziyasını bitirmişdir. Azərbaycan Politexnik İnstitutunda, Yakov Sverdlov adına Kommunist Universitetində təhsil almışdır.

Əmək fəaliyyətinə 1915-ci ildə İrəvan şəhərində müəllim kimi başlamışdır. 1920-1923-cü illərdə Bakı Şəhər Xalq Ərzaq Komissarlığı İdarəsinin rəisi vəzifəsində çalışmışdır. 1925-1927-ci illərdə Naxçıvan Muxtar Respublikası Fövqəladə Xalq Maliyyə Komissarlığında işləmiş, 1929-1930-cu illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) rektoru olmuşdur. 1930-1931-ci illərdə Azərbaycan xalq maarifi komissarı vəzifəsində çalışmışdır. Maqsud Məmmədov Azərbaycan xalqının təhsil və mədəni səviyyəsinin yüksəlməsi üçün böyük enerji sərf etmişdir.

1931-ci ildə Azərbaycan K(b)P MK-nın katibi təyin edilən Maqsud Məmmədov 1933-cü ilə kimi bu vəzifədə çalışmışdır.



1933-1934-cü illərdə Azərbaycan Partiya Tarixi İnstitutunun direktoru olmuşdur.

Partiya işində zəngin təcrübəsini nəzərə alaraq onu yenidən Mərkəzi Komitədə işləməyə dəvət etmişlər. 1936-1937-ci illərdə Azərbaycan K(b)P MK-nın şöbə müdiri işləmişdir. 1937-ci il iyulun 29-dan sentyabrın 19-na qədər "Azərnəşr"in direktorunun səlahiyyətlərini icra etmişdir.

Maqsud Məmmədov Azərbaycan K(b)P MK-nın büro üzvü seçilmiş, 1933-cü ildə Azərbaycan Dövlət Nəşriyyatında ilk dəfə Azərbaycan dilində nəşr olunan V.İ.Leninin "Seçilmiş əsərləri"nin redaktor və tərcüməçilər qrupunun tərkibində təmsil olunmuşdu.

1920-ci ilin sentyabrından Azərbaycan Kommunist Partiyasının üzvü olan Maqsud Məmmədov, 1925-1927-ci illərdə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin, 1930-1934-cü illərdə Azərbaycan K(b)P Bakı Komitəsinin, 1931-ci ildən Azərbaycan K(b)P MK-nın, 1931-1933-cü illərdə Ümumittifaq K(b)P Zaqafqaziya Diyar Komitəsinin üzvü seçilmişdi.

Repressiya qurbanlarından olan Maqsud Məmmədov 1937-ci ilin sentyabrında Xalq Daxili İşlər Komissarlığı tərəfindən həbs olunmuş və güllələnmişdir. Ona 1957-ci ildə bəraət verilmişdir.

## Əhməd Rəcəbli



Əhməd Cabbar oğlu Rəcəbli 1898-ci ildə İrəvanda doğulmuşdur. 1923-cü ildə İtaliyada Ali Eksperimental Aqrar Kral İnstitutunu bitirmişdir. Seleksiyaçı genetik alim, professor, Kənd Təsərrüfatı Akademiyasının (VASXNİL) akademiki olmuşdur. Rus, alman, fransız, ispan, italyan, fars və yunan dillərini bilmişdir.

Əhməd Rəcəbli 1924-1930-cu illərdə genetika elminin yaradılması ilə məşğul olmuş, 1930-1936-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda kafedra müdiri olmuşdur. 1937-ci ildə Stalin repressiyasının qurbanı olmuş, 8 il Kolımada sürgündə olmuş, burada istilik təsərrüfatı yaradaraq tərəvəz yetişdirmiş və yeni sortlar almışdır. 1945-ci ildə Ə. Rəcəbli respublikaya qayıtmış, müəllimlik və elmlə məşğul olmuşdur. 1950-ci ildə təkrarən repressiya olunaraq Qazaxıstana sürgün olunmuşdur. Stalinin ölümündən sonra bəraət alaraq Vətənə qayıdıb elmlə məşğul olmuşdur. O, yüzdən artıq elmi işin, 24 monoqrafiyanın müəllifidir. "Azərbaycanda məhsuldarlıq" kitabı iki dəfə nəşr olunmuşdur. Ə. Rəcəblinin apardığı elmi təcrübələr nəticəsində subtropik bitkilərin, qozun, çəyirdəkli və dənli, qozmənşəli meyvələrin yeni sortları əldə edilmişdir.

Əhməd Cabbar oğlu Rəcəbli 1963-cü ildə Moskvada vəfat etmiş, Bakıda dəfn edilmişdir.

# Məhəmməd Ağaoğlu

Məhəmməd Ağaoğlu 1896-cı ildə İrəvanda doğulmuşdur. 1916-cı ildə Moskva Dövlət Universitetini, 1926-cı ildə Vyana Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. Azərbaycan, ərəb, fars, rus, ingilis, alman, fransız, yunan dillərini bilmişdir.



MDU-nu bitirdikdən sonra Məhəmməd Ağaoğlu şərq mədəniyyəti və islam incəsənətini öyrənmək üçün Türkiyə, İran, Suriya və Orta Asiyaya səfərə çıxmışdır. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında fəal iştirak etmişdir. Bakıda "İstiqbal" muzeyi yaratmış, arxeologiya və etnoqrafiya cəmiyyətlərinin təşkilində iştirak etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra Türkiyə, Avstriyaya, 1929-cu ildə ABŞ-a köçərək ömrünün sonunadək orada yaşamışdır. Elə o ildə Detroyt Universitetində islam mədəniyyəti şöbəsini, sonra islam incəsənəti qalereyasını yaradır. 1933-1938-ci illərdə M. Ağaoğlu bu universitetdə Şərq xalqları mədəniyyəti kafedrasının professoru, 1934-cü ildə "Art İslamica" ("İslam incəsənəti") jurnalını təsis edərək ömrünün sonunadək onun redaktoru olmuşdur. M. Ağaoğlu 50-dən artıq elmi əsərin, habelə "İslam incəsənəti tarixi" (İstanbul, 1928), "XV əsrdə İranda kitab çapı" (Miçiqan, 1935), "Səfəvilər dövrünün manufaktura və xalçaları" (Nyu-York, 1941) monoqrafiyalarının müəllifidir.

Məhəmməd Ağaoğlu 1949-cu ildə ABŞ-ın Kolumbiya ştatında vəfat etmiş, orada dəfn olunmuşdur.

# Məmmədəli Nasir

Məmmədəli Hacı Məmməd oğlu 1899-cu ildə İrəvan şəhərində anadan olmuşdur. Məmmədəlinin atası Hacı Məmməd kişi dini təhsil almış, ərəb, fars dillərini öyrənmişdi. Məmmədəli 1908-1914-cü illərdə İrəvan gimnaziyasında təhsil almış, fars dilini mükəmməl öyrənmişdi.



Nasir təxəllüsü ilə 1912-ci ildə mətbuata gəlmiş gənc Məmmədəli yazılarını Bakıda nəşr olunan “Sədayi-həqq”, “İqbal” qəzetlərində dərc etdirirdi. 1914-cü ildə İrəvanda Azərbaycan dilində “Lək-lək” satirik jurnalı nəşrə başlayanda o, həmin jurnalda “Şeytan”, “Dul toyuq” imzası ilə şeirlər və məqalələrlə çıxış etmuişdir.

Məmmədəli Nasir 1917-ci ilin sonu, 1918-ci ilin əvvəllərində məsləkdaşları M.Mirfətullayev, T.Rzayevlə birgə İrəvanda “Cavanlar şurası” adlı siyasi, ictimai, ədəbi bir qəzet açmağa müvəffəq olmuşdur. Bu qəzet daşnakların çirkin əməllərini pisləyir, xalqı ayıq və səfərbər olmağa səsləyirdi. Bu səbəbdən də qəzetin nəşrinə imkan verilməmiş, 3-4 sayından sonra bağlanmışdı. Bundan sonra o, “Açıq söz” qəzetində çıxışlarını davam etdirmişdir. M.Nasir Hüseynağa Şahtaxtlının rəhbərliyi ilə İrəvanda qurulan “Müdafeyi-məzluman” təşkilatının fəallarından olmuşdur.

M.Nasir daşnakların təqibindən yaxa qurtararaq 1918-ci ildə Gəncəyə gəlmiş, 1920-ci ildə onun redaktorluğu ilə “Qırmızı Gəncə” qəzeti nəşr olunmuşdur. Onun yazdığı “Bədbəxt ailə” pyesi 1919-cu ildə Gəncədə tamaşaya qoyulmuşdur.

1917-ci ildən Kommunist Partiyasının üzvü olan Məmmədəli Nasir 1921-ci ildə Ermənistana rəhbər işə dəvət edilmiş, 1922-ci ilin yanvarınadək Ermənistan KP MK-nın təbliğat-təşviqat şöbəsinin nəzdində Türk seksiyasının müdiri vəzifəsində işləmiş, sonra isə “Rəncbər” qəzetində çalışmşdır.

1922-1923-cü illərdə Qafqaz Bürosu M.Nasiri Gürcüstanın Azqur, Borçalı və Qarayazı rayonlarında partiya komitəsinin katibi vəzifəsinə işə təyin etmişdir. 1926-cı ildə Qafqaz Bürosunun təyinatı ilə Zaqatalada Siyasi maarif şöbəsinin müdiri işləyən M.Nasiri bir il sonra Bakıda “Kommunist” qəzetinə işə dəvət edilmişdir. O, burada bir neçə il təlimatçı, Qəzalarla iş şöbəsinin müdiri vəzifəsində çalışmışdır. M.Nasir 1931-1934-cü illərdə Dəvəçidə (“Yüksəliş”), Laçında (“Şura Kürdüstanı”), Ağdamda (“Ağdam kolxozçusu”), Bərdədə (“Qızıl Bərdə”), Əli Bayramlıda (indiki Şirvan şəhəri - “Pambıq zərbəçisi”), Qasım İsmayılovda (indiki Goranboy – “Qasım İsmayılov kolxozçusu”) rayon qəzetlərinin məsul redaktoru kimi fəaliyyət göstərmişdir.

1935-ci ildə “Yeni yol”da məktublar şöbəsinin müdiri işləmişdir. 1936-cı il iyulun 18-də repressiyaya məruz qoyularaq həbs olunmuş, 10 illik sürgün həyatına məhkum edilmişdir. 1956-cı ildə bəraət almış, həmin ildən vaxtilə işlədiyi “Kommunist” qəzetində təşkilatçı müxbir kimi fəaliyyətini davam etdirmişdir. Eyni zamanda “Ədəbiyyat və incəsənət”, “Kommunist”, “Bakı” qəzetlərində, “Azərbaycan”, “Kirpi” kimi jurnallarda çıxışlar etmişdir

Məmmədəli Nasir 1982-ci il aprel ayının 14-də 83 yaşında vəfat etmiş, Bakının şəhər qəbiristanlığında dəfn olunmuşdur.

# Saleh Güllicinski

Saleh Məşədi Teymur oğlu Güllicinski 1899-cu ildə İrəvanda, İrəvanın sayılan ailərindən olan Məşədi Teymurla Leyli xanımın ailəsində anadan olmuşdur.

İrəvandakı Puşkin adına şəhər məktəbini bitirmişdir. 1916-cı ildə İrəvan Müəllimlər Seminariyasının məzunu olub.



Ermənistan Fövqaladə Komisiyasının ilk müstəntiqlərindən olmuşdur. İrəvanda yaradılmış ilk partiya təşkilatının üzvlərindən biri olan Saleh Güllücinski 1921 - ci ilin əvvəllərində Vedi rayon Hərbi İnqilab Komitəsinin ilk sədri vəzifəsinə göndərilir.

1922-ci ildə Vedi rayon icrayyə komitəsinin sədri vəzifəsində çalışmışdır.

1922-ci ilin sonlarında Tiflisə. Zaqafqaziya Universitetinə təhsilini davam etməyə göndərilir.

Saleh Güllücinski ictimai xadim, 1937- ci ildə Azərb.K(b)P MK yanında Kənd Təsərrüfatı Məktəbinin rektoru olmuşdur.

Saleh Güllücinski 1930 -1937 ci illərdə Azərbaycan KP MK yanında Partiya məktəbinin rektoru, Gəncədə Kənd Təssərüfatı Məktəbinin rektoru, Qasım İsmayılov rayonu MTS (MaşınTraktor Stansiyasında siyasi şöbə rəsi vəzifələrində çalışmış, 1937-ci ildə Zaqafqaziyada ilk Lenin ordeni ilə təltif olunur. 1938-ci ildə repressiya qurbanı olmuşdur.

## Həsən Əliyev

Həsən Əlirza oğlu Əliyev 1907-ci ildə Yelzavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının Qarakilsə nahiyəsinin (sonralar Sisyan rayonu) Comərdli kəndində doğulmuşdur. Torpaqşünas və coğrafiyaşünas alim.



Azərbaycan EA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda elmi işlər üzrə direktor müavini, APİ-də müəllim, Azərbaycan EA Botanika İnstitutunun direktoru (1949-52), Azərbaycan KP MK katibi (1952), Azərbaycan EA-nın akademik katibi (1952-57) olmuşdur. 1968-ci ildən ömrünün sonunadək Azərbaycan EA Coğrafiya İnstitutunun direktoru, eyni zamanda 1975-ci ildən Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin sədri olmuşdur. ABŞ-da, Yunanıstanda, Rumıniyada, İsveçrədə, Polşada və bir sıra başqa ölkələrdə keçirilən beynəlxalq simpoziumların iştirakçısı olmuşdur. H. Ə. Əliyevin Azərbaycanda meşə zolaqlarının və üzümlüklərin salınmasında böyük xidmətləri olmuşdur. Meşələrin qorunması üçün var qüvvəsini səfərbər etmiş, təbiətin mühafizəsi ilə bağlı "Həyəcan təbili" adlı kitabını yazmış, hamını təbiətin mühafizəsinə çağırmışdır. Yüzlərlə elmi əsərin müəllifidir. Dəfələrlə Ali Sovetə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

1992-ci ildə vəfat etmişdir. Xatirəsi əbədiləşdirilərək adı küçə, məktəb və elmi tədqiqat müəssisəsinə verilmişdir.

## Səid Rüstəmov

Səid Əli oğlu Rüstəmov 1907-ci ildə İrəvanda doğulmuşdur. 1930-cu ildə Azərbaycan Dövlət Konservatoriyasının xalq musiqisi fakültəsini, 1932-ci ildə Azərbaycan Pedaqoji Institutunu bitirmişdir. Bəstəkar, dirijor, Azərbaycanın xalq artisti, SSRİ Dövlət mükafatı laureatı olmuşdur.



Səid Rüstəmov 1931-ci ildən Azərbaycan radiosunun xalq çalğı alətləri orkestrinin konsertmeysteri, 1935-ci ildən isə direktoru və bədii rəhbəri olmuşdur. O, 1940-1949-cu illərdə Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və direktoru, 1943-48-ci illərdə Azərbaycan Radio Komitəsinin musiqi verilişləri redaksiyasının rəhbəri olmuşdur. S. Rüstəmov “Azərbaycan rəqs melodiyaları”, “Beş yüz Azərbaycan xalq mahnıları”, “Azərbaycan aşıq mahnıları”, “Azərbaycan xalq mahnıları”, “Azərbaycan xalq rəngləri” kitablarında musiqi işləmələri apararaq onları nəşr etdirmişdir. 1948-1952-ci illərdə Azərbaycan bəstəkarlar ittifaqının sədri olmuş, 1928-ci ildən Bakı musiqi məktəbində, 1958-1983-cü illərdə Azərbaycan dövlət konservatoriyasında tar sinfində dərs demişdir. S. Rüstəmovun əsas əsərləri “Beşmanatlıq gəlin”, “Durna” və “Rəisin arvadı” komediyaları, solo, xor və orkestr üçün “Azərbaycan” kantatası, xalq çalğı alətləri üçün “Bayatı kürd” fantaziya - kantatası, tar və orkestr üçün konsert, Azərbaycan mahnı, rəqs və xalq çalğı alətləri orkestri üçün “Günəşli Azərbaycan” musiqili dramatik kompozisiya və başqalarıdır. Dramatik səhnə əsərlərinə musiqilər yazmışdır. S. Rüstəmovun “Alagöz”, “Sürəyya”, “Gəlmədin”, “Həkim qız” mahnıları lirik və qəlboxşayandır.

Səid Əli oğlu Rüstəmov dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1983-cü ildə Bakıda vəfat etmişdir.

# Heydər Hüseynov

Heydər Nəcəf oğlu Hüseynov 1908-ci ildə İrəvanda doğulmuşdur. 1918-ci ildə ermənilərin İrəvanda törətdikləri qırğınlar zamanı onların ailəsi əvvəlcə Batum şəhərinə, sonra isə Stavropola köçmüş, nəhayət 1920-ci ildə Bakıya gəlmişdir. 1931-ci ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra aspiranturaya daxil olmuşdur. 1935-ci ildə onun “Dialektik materializm” adlı ilk fəlsəfi əsəri dərc olunmuşdur. Alim-filosof, ədəbiyyatçı, ictimai xadim, Azərbaycan EA-nın akademiki, SSRİ Dövlət Mükafatı laureatı olmuşdur.

Heydər Hüseynov 1936-1940-cı illərdə SSRİ EA-nın Ensiklopediya və Lüğətlər İnstitutu filialının direktoru, 1940-1945-ci illərdə SSRİ EA Azərbaycan filialının sədr müavini, eyni zamanda Azərbaycan KP(b) MK nəzdində Partiya Tarixi Institutunun direktoru olmuşdur. 1939-cu ildə M. F. Axundovun fəlsəfi görüşləri haqqında namizədlik dissertasiyası müdafiə etmişdir. Uzun illər ADU-da fəlsəfə kafedrasına rəhbərlik etmişdir. 1944-cü ildə fəlsəfə elmləri doktoru adına layiq görülmüş və bir il sonra Akademiyanın həqiqi üzvü seçilmişdir. 1945-ci ildən etibarən Azərbaycan SSR Elmər Akademiyasında rəhbər vəzifələrdə çalışmış, Akademiyanın vitse-prezidenti, ictimai elmlər şöbəsinin sədri olmuşdur.



Heydər Hüseynov "M. F. Axundovun fəlsəfi görüşləri", "Nizaminin ictimai görüşləri", "Görkəmli Azərbaycan alimi A. Bakıxanov" monoqrafiyalarını və Füzuli, M. Kazımbəy, Zərdabi, Vazeh, S. Vurğun, C. Cabbarlı, Ə. Şıxlinski və onlarla dahi şəxsiyyətlərin həyat və yaradıcılığından bəhs edən əsərlər yazmışdır. H. Hüseynov 4 cildlik “Rusca-Azərbaycanca lüğət”in müəlliflərindən biridir. Bu lüğətin müəllifləri 1948-ci ildə Dövlət mükafatına layiq görülmüşdülər. Onun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən"(1949) adlı sanballı monoqrafiyasında Azərbaycan xalqının ictimai-siyasi və fəlsəfi fikrinin inkişaf mərhələləri təhlil edilmişdir. Bu əsər 1950-ci ildə Stalin mükafatına layiq görülmüşdür. Lakin monoqrafiyanın müəllifi Mircəfər Bağırovun qəzəbinə tuş gəlir və təqib olunur. Beləliklə, XX əsrdə Azərbaycanın ən böyük alimin̈ə qarşı iftiralar baş qaldırır. Heydər Hüseynov özünün həbs olunmağını gözləməyib, 1950-ci ildə böhtanlara dözməyərək, özünü intihar etmişdir.

## Cəfər Xəndan

İrəvan xanlarının törəmələrindən olan Hacıyev Cəfər Zeynal oğlu 1910-cu il mayın 8-də İrəvan şəhərində müəllim ailəsində doğulmuşdur. 1918-ci ildə ailəsi Gəncəyə köçmüş, 1925-1929-cu illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil almışdır. İnstitutun dil və ədəbiyyat fakültəsini bitirdikdən sonra 1932-1941-ci illərdə aspiranturaya daxil olmuş, eyni zamanda institutun ədəbiyyat kafedrasının assistenti, sonra dosenti kimi fəaliyyət göstərmişdir. M.F.Axundov adına Müəllimlər İnstitutunun dil və ədəbiyyat fakültəsinin dekanı, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kafedra müdiri, Azərbaycan Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunda şöbə müdiri, həm də Azərbaycan Yazıçılar İttifaqında təşkilat katibi, «Ədəbiyyat qəzeti» redaksiyasının məsul katibi, «Gənc işçi» redaksiyasında ədəbiyyat şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1939-cu ildə namizədlik, 1948-ci ildə isə doktorluq dissertasiyaları müdafiə etmişdir. 1941-ci ildə səfərbərliyə alınmış, Cənub-Qərb, Şimali Qafqaz cəbhələrində siyasi şöbənin baş təlimatçısı, cəbhə qəzetlərində məsul redaktorun müavini olmuşdur. Ordu sıralarından tərxis olunandan sonra Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında dosent, eyni zamanda «Kommunist» qəzetində mədəniyyət və məişət şöbəsinin müdiri (1946-1947) işləmişdir. Universitetdə filologiya fakültəsinin dekanı (1947-1950), sonra rektoru (1950-1954) vəzifələrində çalışmışdır. 1954-1961-ci illərdə yenidən Azərbaycan Dövlət Universitetinin sovet ədəbiyyatı kafedrasının müdiri olmuşdur.



1961-ci ildə Bakıda vəfat etmişdir. Bakı küçələrindən biri onun adını daşıyır.

## Həsən Seyidov

Həsən Mirəli oğlu Seyidov 1910-cu ildə İrəvanda tacir ailəsində anadan olmuşdur. 1918-ci ildə İrəvanda Körpübulağı məhəlləsindəki məktəbin birinci sinfinə daxil olmuş, elə həmin ildə ermənilərin İrəvanda törətdikləri qırğınlardan canını qurtaran Seyidovlar ailəsi Qarsa qaçmışdır. Atasının orada vəfatından sonra ailəsi Tiflisdə yaşayan dayılarının yanına gəlmişdir. H. Seyidov Tiflisdə Əncümən məktəbində oxumuşdur. 1925-ci ildə onun ailəsi Bakıya köçmüşdür. 1931-ci ildə Sənaye İnstitutunun kənd təsərrüfatı fakültəsini bitirmuşdir.



Təhsilini davam etdirmək üçün H.Seyidov Moskvaya aspiranturaya göndərilir. 1934-cü ildə namizədlik dissertasiyası müdafiə edərək kənd təsərrüfatı üzrə ilk elmlər namizədi kimi Bakıya qayıdır. 1937-ci ildə Pambıqçılıq İnstitutunun direktoru,. 1941-ci ildə Kənd Təsərrüfatı İnstitutunun rəhbəri təyin edilir. 1943-cü ildə Azərbaycan KP MK-nın kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsində işləyir, bir il sonra MK-nın 3-cü katibi, 1946-cı ildə isə MK-nın 2-ci katibi seçilir. 1950-ci ildə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini təyin edilir.

H. Seyidov 1952-ci ildə Bakı şəhər icraiyyə komitəsinin sədri, bir il sonra isə Dövlət Plan Komitəsinin sədri vəzifəsinə təyin edilir. 1960-1961-ci illərdə yenidən Pambıqçılıq İnstitutunun direktoru, sonra isə Plan Komitəsi sədrinin müavini olmuşdur. 1970-ci ilədək Dövlət Tərəvəzçilik və Meyvəçilik Komitəsinin sədri vəzifəsində işləmişdir.

H.Seyidov təqaüdə çıxdıqdan sonra 1972-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş, Yer Quruluşu Layihə İnstitutunda şöbə müdiri vəzifəsində işləmişdir.

## Hüseyn Seyidzadə

Hüseyn Mirəli oğlu Seyidzadə 1912-ci ildə İrəvanda anadan olmuşdur. Həsən Seyidovun kiçik qardaşıdır. 1927-ci ildə Bakıda tikiş fabrikində əmək fəaliyyətinə başlamış, sonra fəhlə teatrına daxil olmuş, aktyor köməkçisi kimi fəaliyyət göstərmişdir. Bir ildən sonra o, Gənc işçi teatrının aktyoru olmuşdur. 1930-cu ildə Leninqrqadda rejissorluq kursunu bitirmiş və Bakıya qayıtmışdır. 1936-cı ildə Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun kinorejissorluq fakültəsini bitirdikdən sonra "Azərbaycanfilm" kinostudiyasında işləmişdir. 1938-ci ildə "Bakılılar", "Böyük şəfəq", 1939-cu ildə "Ayna" filmlərinin çəkilişində rejissorluq etmişdir. Sonra o, "Lenfilm" studiyasında öz peşəsini təkmilləşdirmişdir.



1943-cü ildə rejissor Niyazi Bədəlovla birgə müharibəyə sovqat göndərən insanların vətənpərvərlik duyğularından söhbət açan "Sovqat" filmini çəkmişdir. 1956-cı ildə Bakının kinoteatrlarında ekrana Hüseyn Seyidzadənin "O olmasın, bu olsun" filmi çıxarıldı. Azərbaycanda elə bir kino əsəri yoxdur ki, "O olmasın, bu olsun" qədər məşhur aktyor ansamblı toplaya bilsin. Dünyanı dolaşan bu film Hüseyn Seyidzadə yaradıcılığının şah əsərlərindəndir.

Hüseyn Seyidzadə 1969-cu ildə İsmayıl Şıxlının eyniadlı romanı əsasında yazdığı "Dəli Kür" ssenarisini ekranlaşdırıldı.

"Yenilməz batalyon" (1965), "Koroğlu" (1960), "Var olun qızlar" (1972), "Qayınana" (1978) bədii filmləri H.Seyidzadənin ən yaxşı rejissor işlərindəndir.

Hüseyn Seyidzadə mübariz sənətkar idi. O, sözünü açıq deməyi xoşlayırdı.

O, 1970-ci ildə Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

Son vaxtlar Natəvan haqqında film çəkmək istəyirdi. Ancaq amansız ölüm buna imkan vermədi. Hüseyn Seyidzadə 1979-cu il iyunun 2-də vəfat etmişdir.

Bakıda küçələrdən biri onun adını daşıyır.

## Bağır Seyidzadə

Bağır Qasım oğlu Seyidzadə 1912-ci-ildə İrəvanda anadan olmuşdur. Ermənilərin 1918-ci ildə törətdikləri qırğınlar səbəbindən seyidzadələr ailəsi Tiflisə köçməyə məcbur olurlar. B.Seyidzadə burada Əncümən məktəbində təhsil almışdır. O, 1925-ci ildə Bakıya gələrək toxuculuq fabrikində işləmiş və fəhlə fakültəsində oxumuş, sonra Sənaye İnstitutuna daxil olmuşdur.



B. Seyidzadə 1932-39-cu illərdə “Gənc işçi” qəzetində işləmişdir. 1939-40-cı illərdə həmin qəzetin məsul katibi və redaktoru olmuşdur. O, 1940-43-cü illərdə Azərbaycan Gənclər İttifaqının katibi seçilmişdir. Moskvada bir illik diplomatiya kursunu bitirdikdən sonra 1944-49-cu illərdə İranın Maku və Təbriz şəhərlərindəki Sovet konsullqlarında vitse-konsul və baş konsul vəzifələrində çalışmışdır. Təbrizdən qayıtdıqdan sonra kinematoqrafiya naziri və mədəniyyət nazirinin müavini, sonra isə Poliqrafiya və Nəşriyyat İdarəsinin rəhbəri olur.

B. Seyidzadə sonralar Radio Verilişləri komitəsində işləmiş, ömrünün son illərində isə Nazirlər Soveti yanında Teleqraf Agentliyində direktor müavini vəzifəsində çalışmışdır. O, rus, fransız və fars dillərini mükəmməl bilirdi.

B. Seyidzadə 1968-ci ildə Bakıda vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

Qızı, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi vəzifəsində işləmişdir.

## Əhməd Cəmil

Əhməd Səttar oğlu Cəmilzadə 1913-cü il oktyabrın 20-də İrəvan quberniyasının İrəvan şəhərində sənətkar ailəsində doğulmuşdur. İbtidai və orta təhsilini Gəncədə almışdır. «Gözəl Qafqaz» adlı ilk şeiri 1928-ci ildə «Qızıl Gəncə» jurnalında dərc olunmuşdur. Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin Gəncə bölməsində fəal iştirak etmişdir. Sonra Bakıda Ali Pedaqoji İnstitutun ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir (1930-1933). Şəmkir rayonunun Zəyəm kəndində (1933-1936), sonra Gəncədə (1936-1940) orta və ali məktəb müəllimi, metodist olmuşdur. 1940-cı ilin sentyabr ayından Azərbaycan Sovet Yazıçılar İttifaqında poeziya bölməsində məsləhətçi, «Ədəbiyyat qəzeti»ndə ədəbi işçi, məsul katib işləmiş, sonra ittifaqın məsul katibi seçilmişdir (1940-1942). İkinci Dünya müharibəsi illərində Şimali Qafqaz və Krım cəbhə qəzetləri redaksiyalarında çalışmışdır (1942-1943). O, 1944-1948-ci illərdə Yazıçılar İttifaqı İdarə Heyətinin məsul katibi vəzifəsində işləmişdir. 1950-ci ildə Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi, 1951-ci ildə «Ədəbiyyat qəzeti»ndə müvəqqəti redaktor işləmişdir. Azərnəşrdə baş redaktor, redaktor (1953-1955), Azərbaycan Mədəniyyət Nazirliyində məsləhətçi (1956-1959), «Azərbaycan» jurnalının redaktoru (1959-1960), Azərnəşrin baş redaktoru (1962-1963), Gənclik nəşriyyatında redaktor (1964-1967), «Ulduz» jurnalında baş redaktor işləmişdir (1973-1977). Rus, gürcü, Ukrayna, erməni, özbək, belorus, tacik və s. dillərdən Azərbaycan dilinə tərcümələr etmişdir.



Əhməd Cəmil 1977-cı ildə Bakıda vəfat etmişdir.

## Əfşan Qədimbəyova

Mirzə Qədim İrəvaninin Qədimbəyov soyadını daşıyan törəmələri içərisində bir çox parlaq şəxsiyyətlər olmuşdur. Onların arasında 1915-ci ildə İrəvan şəhərində anadan olmuş Əfşan xanım xüsusilə seçilir. O, 1929-cu ildə İrəvan Pedaqoji Texnikumunu bitirdikdən sonra 1931-1935-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun (indiki Azərbaycan Pedaqoji Universiteti) pedaqoji fakültəsində təhsilini davam etdirmişdir. Ana dili ilə yanaşı, rus və ingilis dillərini mükəmməl bilən Əfşan xanım iki il Moskvada Pedaqoji İnstitutun aspiranturasında təhsil aldıqdan sonra Bakıya qayıtmış, 1942-ci ildə Azərbaycan Gənclər İttifaqının üçüncü katibi seçilmiş və dörd il həmin vəzifədə çalışmışdır.



Daha sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinin partiya komitəsinin katibi, Azərbaycan KP MK-da şöbə müdirinin müavini vəzifələrində fəaliyyət göstərən Ə. Qədimbəyova, 1949-1956-cı illərdə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun rektoru işləmişdir. Əfşan xanım 1953-cü ildə həm də Azərbaycan SSR Ali Soveti sədrinin müavini seçilmişdir.

1965-ci ildə "1920-1941-ci illərdə Azərbaycanda məktəbəqədər tərbiyənin inkişafı mövzusunda" namizədlik dissertasiyası müdafiə etmişdir.

Ə.Qədimbəyova dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmişdir.

Ə.Qədimbəyova 1968-ci ildən 1978-ci ilə qədər Azərbaycan Pedaqoji İnstitutunda kafedra müdiri vəzifəsində çalışmış və 1980-ci ildə dünyasını dəyişmişdir.

Mirzə Qədim İrəvaninin rəssamlıq ənənəsini onun nəticəsi, Əməkdar incəsənət xadimi İsmət Axundov davam etdirmişdir. 1925-ci ildə İrəvan şəhərində anadan olmuş İ. Axundov ilk təhsilini İrəvanda almış, sonra Ə. Əzimzadə adına Rəssamlıq Məktəbini bitirmişdir. İ. Axundov əsasən mənzərə janrında əsərlər yaratmışdır.

Qədimbəyovlar nəslinin daha bir nümayəndəsi Zaur Qədimbəyov sanballı jurnalist kimi keçmiş İttifaqda yaxşı tanınırdı. O, uzun illər "İzvestiya"nın xüsusi müxbiri kimi fəaliyyət göstərmişdir.

Bu ziyalı nəslin başqa bir nümayəndəsi Şaiq Qədimov 1926-cı ildə İrəvanda anadan olmuş, orta təhsilini burada almış, Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. O, 1974-cü ildə müdafiə edərək tibb elmləri namizədi adını almışdır. "Qan qohumluğu" (1989) "Mustafa Topçubaşov", (1989) "Ailənin intim dünyası" (1990), "İnsanlar üçün bəla" (1990), "Xalq təbabətinin ensiklopediyası" (1997) əsərlərinin müəllifi olan Ş.Qədimov həm də bədii və publisistik yaradıcılıqla məşğul olmuşdur.

Ş.Qədimovun bacısı Siddiqə Qədimova (1912-1986) "Sovet Ermənistanı" qəzetində çalışmış, SSRİ Ali Sovetinin deputatı seçilmiş, İrəvanda ilk dəfə olaraq Azərbaycan dilində radio verilişlərini hazırlamış, ömrünün son günlərinə qədər həmin redaksiyada şöbə müdiri olmuşdur.

## Əkbər Yerevanlı (İrəvanlı)

Əkbər Yınis oğlu Süleymanov 1921-ci il iyulun 17-də İrəvan şəhərində anadan olmuşdur. Burada orta məktəbi bitirmiş, 1943-1948-ci illərdə İrəvan Dövlət Universitetinin filologiya fakültəsinin Şərq şöbəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1938-ci ildə İrəvanda Azəbaycan dilində nəşr edilən “Kommunist” (1939-cu ildən «Sovet Ermənistanı») qəzetinin redaksiyasında başlamış, ədəbi işçi, məsul katib, tərcüməçi vəzifəsində işləmişdir. 1951-ci ildə Ermənistan EA M.Abeğyan adına Ədəbiyyat İnstitutunun aspiranturasna daxil olmuş, 1954-cü ildə «Erməni və Azərbaycan xalqlarının dostluq ideyasının ədəbiyyatda inikası» movzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1950-1965-ci illərdə İrəvan Dövlət Universitetində Azərbaycan ədəbiyyatı müəllimi olmuş, 1956-cı ildən X.Abovyan adına İrəvan Pedaqoji İnstitutunda Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri işləmişdir. Erməni və Azərbaycan qarşılıqlı ədəbi əlaqələri sahəsində ardıcıl tədqiqat aparmış, bir sıra erməni yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Onun erməni dilində «Erməni və Azərbaycan xalqlarının dostluğunun ədəbiyyatda inikası» (1955), «Cəlil Məmmədquluzadə və erməni xalqı» (1966), «Nəsimi» (1973), «Xatabala» həftəlik qəzeti və «Azərbaycan» (1974) kitabları çap olunmuşdur.



Əkbər Yerevanlının “Azəri-erməni ədəbi əlaqələri. Qədim dövrdən XVIII əsrin sonuna qədər” mövzusunda doktorluq dissertasiyası 554 səhifə həcmində monoqrafiya şəklində 1968-ci ildə İrəvanbda “Hayastan” nəşriyyatında çap olunsa da, ömrünün sonuna kimi onu müdafiə etməyə qoymamışdılar.

Əkbər Yerevanlının İrəvan şəhərində Azərbaycan dilində “Erməni-Azərbaycan şifahi xalq ədəbiyyatı əlaqələri” (1958, 270 səh.), “Sabir və erməni xalqı” (1962, 45 səh.), “Hovanes Tumanyan və Azərbaycan ədəbiyyatı” (1974, 131 səh.), “Avetik İsahakyan və Azərbaycan ədəbiyyatı” (1975, 192 səh.) tədqiqat əsərləri və bədii yaradıclıq nümunələri toplanmış bir neçə kitabı çap olunmuşdur.

Cəfakeş tədqiqatçı, nasir, dramaturq Əkbər Yerevanlı 1981-ci ildə İrəvan şəhərində vəfat etmiş, valideynlərinin yanında dəfn olunmuşdur.

Əkbər Yerevanlının Sabir Rizayevlə birgə yazdıqları 165 səhifəlik illüstrasiyalı “Yunis Nuri” kitabı 1982-ci ildə Ermənistan Teatr Cəmiyyəti tərəfindən İrəvanda çap olunmuşdur.

Əkbər Yerevanlının atası Yunis Nuri İrəvanda Azərbaycan teatrının banisi olmuş, 18 yaşından etibarən təqribən 50 il ərzində teatr kollektivinə rəhbərlik etmişdir. Yunis Nurinin oğlu Əziz Süleymanov 1967-1968-ci illərdə teatrın direktoru işləmişdir. 1984-cü ildən teatr bağlananadək Əkbər Yerevanlının oğlu Yunis Süleymanov İrəvan Azərbaycan Dövlət Dram Teatrının direktoru işləmişdir.

# Mirəli Seyidov

Mirəli Mirələkbər oğlu Seyidov 1918-ci ildə İrəvanda anadan olmuş, ibtidai təhsilini burada almışdır. 1938-ci ildə Bakıda hidromeliorasiya texnikumunu bitirmişdir. 1938-1944-cü illərdə İrəvan Pedaqoji İnstitutunun azərbaycanlı bölməsində təhsil almışdır. Eyni zamanda, 1941-1945-ci illərdə İrəvan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində oxumuşdur.



Həmin illərdə "Sovet Ermənistanı" qəzeti redaksiyasında korrektor, ədəbi işçi, şöbə müdiri, məsul katibin müavini vəzifələrində işləmişdir. 1945-1953-cü illərdə AMEA-nın Nizami adına Ədəbiyyat Muzeyinin orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, 1953-1960-cı illərdə Nizami adına Dil və Ədəbiyyat İnstitutunda orta əsrlər şöbəsində baş elmi işçi, 1960-1967-ci illərdə ədəbi əlaqələr şöbəsində baş elmi işçi, 1967-1980-ci illərdə şöbə müdiri, 1980-1988-ci illərdə Azərbaycan mifologiyası və orta əsrlər folkloru şöbəsinin müdiri işləmişdir.

1953-cü ildə "Sayat Novanın həyat və yaradıcılığı" mövzusunda namizədlik, 1969-cu ildə isə "Azərbaycan-erməni ədəbi əlaqələri (ən qədim dövrdən XVIII əsrin sonunadək)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Mirəli Seyidovun 1954-cü ildə "Sayat Nova", 1963-cü ildə "Qövsi Təbrizi", "Qafqaz xalqlarının nəğməkarı", 1969-cu ildə "Azərbaycan-erməni ədəbi əlaqələri" (rusca), 1976-cı ildə "Azərbaycan-erməni ədəbi əlaqələri - orta əsrlər" kitabları çap olunub.

Müəllifin "Azərbaycan mifik təfəkkürünün qaynaqları" (1983), Qızıl döyüşçünün taleyi" (1984), "Azərbaycan xalqının soykökünü düşünərkən" (1989), "Yaz bayramı" (1990), "Qam-şaman və onun qaynaqlarına ümumi baxış" (1994), "Böri-qurt" (2006) kitabları işıq üzü görmüşdür.

Mirəli Seyidov Əməkdar elm xadimi adına layiq görülmüşdür.

1992-ci il aprelin 26-da Bakıda vəfat etmiş, ikinci Fəxri xiyabanda dəfn olunmuşdur. Bakının küçələrindən biri onun adını daşıyır.

## Kamil Əliyev

Kamil Müseyib oğlu Əliyev 1921-ci- ildə İrəvan şəhərində anadan olmuşdur. Dəfələrlə talelərinə qaçqınlıq faciəsi yazılan Əliyevlər ailəsi 30-cu illərdə Bakıya köçmüşdür.

K.Əliyev Ə.Əzimzadə adına Rəssamlıq Texnikumunu bitirdikdən sonra "Azərxalça". İstehsalat Birliyində rəssam işləmişdir. İkinci Dünya müharibəsinin iştirakçısı Kamil Əliyev 1946-cı ildə ordudan qayıtdıqdan sonra Xalça İsehsalat Yaradıcılıq Kombinatında rəssam işləmiş, bir müddət Respublika Bədii Fonduna rəhbərlik etmiş, sonralar Bakı zərgərlik fabrikində direktor vəzifəsində çalışmışdır. 1950-ci illərdən etibarən Kamil Əliyevin yaradıcılığında süjetli xalıların və portret-xalçaların yaradılması aparıcı mövqe tutmuşdur. Bu illərdə sənətkar bir-birinin ardınca yüksək professionallıqla Azərbaycan klassiklərindən Füzulinin. Nizaminin, Nəsiminin, Mirzə Fətəli Axundovun, görkəmli dövlət xadimləri İndira Qandinin, Atatürkün, Heydər Əliyevin, Süleyman Dəmirəlin, Bill Klintonun, Vladimir Putinin portretlərini yaratmışdır.



Kamil Əliyev Azərbaycan xalçaçılığını yeni-yeni nəbati, həndəsi ornamentlərlə, yeni-yeni rəng qammaları ilə daha da zənginləşdirmişdir. Rəssamın əsərləri Paris, London, Tokio, Dehli, Ankara, İstanbul, Tehran, Moskva, Kiyev və başqa şəhərlərin nüfuzlu muzey və qalereyalarında nümayiş etdirilərək, tamaşaçıların hüsn-rəğbətini qazanmışdır. "Azərxalça" Birliyinin baş direktoru Kamil Əliyevin böyük və zəngin yaradıcı əməyi layiqincə qiymətləndirilmişdir. O, Azərbaycan Respublikasının Xalq rəssamı adına, ölkənin ən yüksək mükafatı olan "İstiqlal" ordeninə layiq görülmüşdür. Xalq dekorativ-tətbiqi sənəti sahəsində gördüyü səmərəli elmi işlərə görə ona professor elmi adı verilmişdir. Kamil Əliyev sağlığında muzeyi açılan ilk xalça ustası sayılır.

Professor Kamil Əliyev 2005-ci ildə Bakıda vəfat etmişdir.

**Həbib Həsənov**

Həbib Rəhimoğlu Həsənov 1922-ci ilin avqustun 5-də Ermənistan SSR Göyçə mahalının Ağzıbir kəndində anadan olmuşdur.

1941-ci ildən Əzizbəyov rayonunda kənd məktəbinin müəllimi, sonralar isə direktoru işləmişdir.



1947-ci ildən Moskvada Ali Partiya Məktəbinin müdavimi, Ermənistanın Əzizbəyov rayonu partiya komitəsinin şöbə müdiri, Eçmiədzin partiya komitəsinin ikinci katibi, Amasiya rayonunun birinci katibi (1956–1960) vəzifələrində işləmişdir.

1961-1974-cü illərdə "Sovet Ermənistanı" qəzeti Həbib Həsənovun redaktorluğu ilə nəşr olunmuşdur. Ermənistan SSR Ali Soveti Rəyasət Heyəti sədrinin müavini olmuşdur. Həbib Həsənov qardaşı, filologiya elmləri namizədi, İrəvan Pedaqoji İnstitutunun filologiya fakültəsinin müəllimi Mehdi Həsənovun erməni şovinistləri tərəfindən öldürülməsindən (kor bağırsaq əməliyyatından) sonra İrəvanı tərk edərək Bakıda məskunlaşmışdır.

1974-cü ildən Azərbaycnın Tovuz rayonu partiya komitəsinin birinci katibi, 1980-ci ildən Azərbaycan SSR Dövlət Meşə Təsərrüfatı Komitəsinin sədri, 1981–1988-ci illərdə meşə təsərrüfatı naziri vəzifələrində çalışmışdır.

5 dəfə Ermənistan SSR Ali Sovetinin, 3 dəfə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

Həbib Həsənovun 1997-ci ildə Bakıda nəşr olunmuş "Silinməz adlar, sağalmaz yaralar" adlı kitabında hazırda Ermənistan Respublikası adlandırılan qədim Oğuz yurdunda – Qərbi Azərbaycanda son 200 ildən artıq bir dövrdə ermənilərin soydaşlarımızın başına gətirdikləri faciələrdən, deportasiyalardan, soyqırımlardan, bəhs edilir.

Həbib Həsənov 2004-cü ildə Bakıda vəfat etmişdir.

## Sabir Rizayev

Görkəmli kinoşünas və teatrşünas, sənətşünaslıq elmləri doktoru Sabir Əkbər oğlu Rizayev 17 aprel 1924-cü ildə İrəvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. İrəvandakı Puşkin adına yeddiillik məktəbi bitirmişdir. Atası Əkbər Rizayev həmin vaxt Moskvada "İnostrannaya literatura" jurnalının redaksiyasında Türk ədəbiyyatı şöbəsinin müdiri işləyirdi. Sabir orta məktəbi Moskvada bitirmiş, 1942-ci ildə könüllü olaraq müharibəyə getmişdir. İkinci Dünya müharibəsi qurtardıqdan sonra İrəvana qayıtmış və "Kommunist" qəzetində işləmişdir. 1948-ci ildən teatr tamaşaları və filmlər haqqında tənqidi məqalələri mətbuatda dərc olunmağa başlamışdır.



Sabir Rizayev 1951-ci ildə İrəvandakı Teatr İnstitutunu bitirmişdir. O, 1954-cü ildə Leninqradda (Sankt-Peterburq) Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun aspiranturasını fərqlənmə diplomu ilə bitirdikdən sonra "Armenfilm" kinostudiyasında ssenarı şöbəsinə rəhbərlik etmiş, Ermənistan Dövlət Kinematoqrafiya Komitəsində baş redaktor işləmişdir. 1965-ci ildən ömrünün sonunadək Ermənistan Elmlər Akademiyasının İncəsənət İnstitutunun direktor müavini və Ermənistan Kinematoqrafçılar İttifaqının idarə heyətinin katibi vəzifəsində işləmişdir. Onun səyi nəticəsində İncəsənət İnstitutunda Kino şöbəsi yaradılmış, bir sıra monoqrafiyalar yazılmışdı.

Erməni dilini mükəmməl bilən Sabir Rizayev əsərlərini rus dilində yazmışdır.

Sabir Rizayevin ömrünü teatra, incəsənətə bağlamasında onun valideynlərinin müstəsna xidmətləri olmuşdu. Onun atası Əkbər Rzayev hələ İrəvan gimnaziyasında oxuyarkən "Könülsüz nikah" adlı komediya yazmış və həmin əsər İrəvan teatr həvəskarları tərəfindən tamaşaya qoyulmuşdu. Daha sonralar Əkbər Rzayev Ermənistan komsomolunun Mərkəzi Komitəsində və Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsində məsul vəzifələrdə işlədiyi vaxtlarda İrəvan teatrını yaşatmaq üçün tamaşalarda rollar ifa etmişdir. Anası Firəngiz Rzayeva İrəvanda səhnəyə çıxan ilk ziyalı azərbaycanlı qadınlardan olmuşdur.

Sabir Əkbər oğlu Rizayev 1975-ci ildə Ermənistan SSR-in Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür. Müasir erməni sənətşünasları Sabir Rizayevi erməni kinoşünaslığının banisi adlandırırlar. O, bir sıra filmlərin ssenari müəllifi olmuşdur. Sabir Rizayevin qələmindən çıxan "Erməni bədii kinematoqrafiyası" (1963), "Raçya Nersesyan" (1968), "Vardan Əcəmyan" (1978) monoqrafiyaları sənətşünasların stolüstü kitablarına çevrilmişdir.

Onun müəllifi olduğu İrəvan Azərbaycan Dram Teatrı haqqında ilk tədqiqat əsəri 1963-cü ildə Bakıda rus dilində "Ermənistanda Azərbaycan teatrı" adı altında çap olunmuşdur. İrəvan teatrının banisi Yunis Nuri haqqında Sabir Rizayevlə aktyorun oğlu Əkbər Yerevanlının birgə yazdıqları 165 səhifəlik illüstrasiyalı "Yunis Nuri" kitabı 1982-ci ildə Ermənistan Teatr Cəmiyyəti tərəfindən İrəvanda azərbaycanca çap olunmuşdur.

Ümumiyyətlə, Sabir Rizayevin müəllifliyi və tərtibçiliyi ilə 28 kitabı çap olunmuşdur. Onlardan 14-ü rus dilində, 13-ü erməni dilinə tərcümə olunaraq, 1-i isə azərbaycanca çap olunmuşdur.

Sabir Rizayevin yazdığı əsərlər bu gün də öz aktuallığını saxlamasının göstəricisidir ki, onun rus dilində yazdığı məqalələrinin bir qismi toplanaraq 2009-cu ildə İrəvanda "Избранные работы: о театре и кино" adı ilə 280 səhifə həcmində nəfis şəkildə çap edilmişdir.

Sabir Rizayev yaradıcılığının çiçəkləndiyi bir vaxtda həyatla vidalaşmışdır. O, 20 dekabr 1978-ci ildə İrəvanda keçirilən konfrans zamanı məruzə edərkən infarkt keçirmiş və məruzəsini tamamlaya bilməyərək gözlərini əbədi yummuşdur.

Sabir Rizayev böyük izdihamla İrəvan şəhər qəbiristanlığında dəfn edilmişdir.

# Zərifə Budaqova

Zərifə İsmayıl qızı Budaqova (Əliyeva) 1929-cu ildə İrəvan şəhərinin Dəmirbulaq məhəlləsində anadan olmuşdur. O, 1946-cı ildə İrəvan Pedaqoji Məktəbini bitirmiş və həmin ildə İrəvan Pedaqoji İnstitutunun azərbaycanlı bölməsinin filoloji fakültəsinə daxil olmuşdur. 1948-ci ildə Ermənistandan deportasiya olunan Zərifə xanım təhsilini Azərbaycan Pedaqoji İnstitutunda davam etdirərək 1950-ci ildə oranı bitirmişdir. Azərbaycan EA Dilçilik İnstitutunun aspiranturasına daxil olan Zərifə xanım təhsilini Moskvada davam etdirmişdir. O,1953-cü ildə Moskvada namizədlik, 1963-cü ildə doktorluq dissertasiyaları müdafiə edərək dilçi azərbaycanlı qadınlar arasında ilk filologiya elmləri namizədi və doktoru olmuşdur.



1955-ci ildə Dilçilik İnstitutunda Müasir Azərbaycan dilçiliyi şöbəsinin müdiri təyin edilir və ömrünün sonunadək həmin şöbəyə rəhbərlik edir. 1980-ci ildə Zərifə xanım Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, 1987-ci ildə Dilçilik İnstitutunun direktoru seçilmişdir. Zərifə xanım 1989-cu ilin noyabrında Bakıda vəfat etmişdir.

Z.Budaqova 150-dən artıq əsərin müəllifidir. Onun rəhbərliyi ilə 10 elmlər doktoru, 25 elmlər namizədi yetişmişdir. Onun rus dilində yazdığı "Грамматика азербайджанского языка" monoqrafiyası bir sıra xarici dillərə tərcümə edilmişdir.

Zərifə xanım akademik, Azərbaycan Milli Elmlər Akademiyası Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru Budaq Budaqovun həyat yoldaşı idi.

## Cahangir Əliyev

Cahangir Həsənəli oğlu Əliyev 5 may 1931-ci ildə Qərbi Azərbaycanın Amasiya rayonunun (Ağbaba mahalı) Düzkənd kəndində anadan olmuşdur. 1952-1954-cü illərdə rayon Komsomol Komitəsinin ikinci, sonra isə birinci katibi işləmişdi. Azərbaycan Pedaqoji İnstitutunu bitirdikdən sonra 1956-1962-ci illərdə Amasiya rayonunda çıxan "Kolxozçu tribunası" qəzetinin redaktoru olmuşdur. 1962-1964-cü illərdə Bakı Ali Partiya Məktəbində təhsil aldıqdan sonra rayonlararası "Şirak" qəzetinin redaktor müavini, daha sonra Amasiya rayon Partiya Komitəsində təbliğat-təşviqat şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1965-1969-cu illərdə Amasiya rayon Soveti İcraiyyə Komitəsinin sədri, sonra Ermənistan KP MK-nın təbliğat və təşviqat şöbəsində təlimatçı, 1974-1981-ci illərdə Amasiya rayon Partiya Komitəsinin birinci katibi işləmişdir.



1981-1985-ci illərdə Ermənistan KP MK, Ali Soveti Rəyasət Heyəti və Nazirlər Sovetinin orqanı olan "Sovet Ermənistanı" qəzetinin redaktoru olmuşdur. O, həmçinin 1982-84-cü illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyəti sədrinin müavini olmuşdur.

Ermənistan KP MK-nın üzvü (1976–1984), Ermənistan SSR Ali Sovetinin deputatı (IX–X çağırış olmuşdur.

1984-cü ildə Bakıya köçmək məcburiyyətində qalan Cahangir Əliyev əvvəlcə Azərbaycan KP MK aparatında mətbuat bölməsində işləmiş, 1991-ci ildən ömrünün sonunadək "Xalq qəzeti"ndə çalışmışdır.

Cahangir Əliyev 2010-cu ildə Bakıda vəfat etmişdir.

## Zərbəli Qurbanov

Zərbəli Qasım oğlu Qurbanov 1932-ci ildə Basarkeçər rayonunun Nərimanlı kəndində anadan olmuşdur.

Zərbəli Qurbanov ali partiya təhsili almışdı. Məktəb direktoru, kolxoz sədri, Basarkeçər rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, 1981-1985-ci illərdə Amasiya rayon Partiya Komitəsinin birinci katibi, Zərbəli Qurbanov 1985-1988-ci illərdə "Sovet Ermənistanı"nın redaktoru, Ali Sovetin deputatı, Ali Sovet Rəyasət Heyəti sədrinin müavini olmuşdur.



Zərbəli Qurbanovun redaktorluq illəri "yenidənqurma" və "aşkarlıq" pərdəsi altında erməni şovinizminin yenidən baş qaldırması dövrünə təsadüf etmişdir. 1987-ci ilin sonlarından etibarən "Sovet Ermənistanı" qəzetinin redaksiyası öz əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsi qayğısına qalmaqla yanaşı, həm də bütövlükdə Ermənistan ərazisində insan hüquqları kobudcasına pozulan, təzyiq və təqiblərlə üzləşən, ermənilərin zorakılıqlarına məruz qalan azərbaycanlıların hüquqlarının müdafiəçisi kimi çıxış etmək məcburiyyətində qalmışdı 1988-ci ilin sonunda "Sovet Ermənistanı" qəzetinin əməkdaşlarının böyük əksəriyyəti Azərbaycana köçmək məcburiyyətində qalmışdı. Ermənistan SSR Ali Soveti Rəyasət Heyəti sədrinin müavini, Ermənistan KP MK-nın, Ali Sovetin və Nazirlər Sovetinin orqanı olan qəzetin redaktoru kimi, Zərbəli Qurbanov 1989-cu ilin yanvarında Bakıya gələrək, Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun qəbulunda olmuş, Ermənistanda yaşayan azərbaycanlılara qarşı ermənilərin etdikləri vəhşiliklər haqqında məlumat vermiş, etnik təmizləmə siyasətinin respublika rəhbərliyi səviyyəsində həyata keçirildiyini bildirmişdi. Lakin Azərbaycan rəhbərliyinin öz soydaşlarının taleyinə biganə qalması ermənilərə imkan verdi ki, etnik təmizləmə siyasətini qısa müddətdə başa çatdırsınlar. İrəvandakı Opera teatrının qarşısında keçirilən mitinqlərin birində "Sovet Ermənistani" qəzeti ilə haqq-hesab çəkmək təklif olunmuş, mitinqçilər redaksiya binasını mühasirəyə almışdılar. Xüsusi təyinatlı dəstənin mitinqçiləri dağıtması nəticəsində redaksiyanın 20-yə yaxın əməkdaşı girov vəziyyətindən azad olunmuşdular. Bir müddətdən sonra Zərbəli Qurbanov və redaksiyanın bir neçə əməkdaşı həmişəlik olaraq İrəvanı tərk etmək məcburiyyətində qalmışdılar.

Zərbəli Qurbanov 12 iyul 1994-cü ildə Azərbaycan Respublikası Qaçqınlarla və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsində kadrlar üzrə aparıcı müfəttiş vəzifəsinə təyin olunmuşdur.

1998-ci ildən ömrünün sonuna kimi Prezident Aparatının İşlər İdarəsində çalışmışdır.

Zərbəli Qurbanov 2003-cü ildə Bakı şəhərində vəfat etmişdir.

# İsrafil Məmmədov

İsrafil Süleyman oğlu Məmmədov 1927-ci il noyabrın 8-də Qərbi Azərbaycanın Meğri rayonunun Əmrəkar kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1943–44-cü illərdə qonşu Vardanizor kəndində müəllimlik edib. 1944–48-ci illərdə Meğri rayon komsomol komitəsində, rayon qəzeti redaksiyasında müxtəlif vəzifələrdə çalışmış, 1948–1951-ci illərdə Ermənistan LKGİ Meğri rayon komitəsinin birinci katibi seçilmişdir. Eyni zamanda Meğri rayon qəzeti - "Kolxoz kəndi" redaksiyasında və radio verilişlərində Azərbaycan dilində olan materialları redaktə etmişdir. 1952–55-ci illərdə Ermənistan KP MK nəzdində üç illik partiya məktəbində təhsil alan İ. Məmmədov, həmçinin 1954-cü ildə Azərbaycan Dövlət Pedaqojin İnstitutunun tarix fakültəsini qiyabi bitirib. 1956–1987-ci illərdə "Sovet Ermənistanı" qəzeti redaksiyasında redaktor köməkçisi, partiya və təbliğat şöbələrinin müdiri, məsul katib, redaktor müavini, 1987–89-cu illərdə Ermənistan SSR maarif nazirinin müavini, 1989–90-cı illərdə "Sovet Ermənistanı" qəzetinin redaktoru vəzifələrini icra etmişdir. Eyni zamanda Ermənistan KP MK nəzdində partiya komissiyasının, Ermənistan SSR "Bilik" cəmiyyəti Rəyasət heyətinin və Ermənistan SSR sülhü müdafiə komitəsinin Mərkəzi Şurasının üzvü olumşdur.



1972-ci ildə "Ermənistanda Azərbaycan mətbuatının tarixi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1964-cü ildən İrəvan Pedaqoji Universitetində dərs deyib.

1991-ci ildən Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində "Erməni redaksiyası"nın müdiri olub. Daha sonra AMEA-nın Milli Münasibətlər İnstitutunda və Tarix institutunda Azərbaycanlıların deportasiyası və soyqırımı şöbəsinin müdiri vəzifəsində işləyib.

Azərbaycanlıların soyqırımı və deportasiyasına, mətbuat tarixinə və ictimai fikir tarixinə dair 20-dən artıq kitabın müəllifidir.

“İrəvan xanlığı” monoqrafiyasının müəlliflərindən biri kimi, Azərbaycan Respublikası Prezidentinin 25 may 2012-ci il tarixli Sərəncamı ilə elm sahəsində Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

25 iyun 2019-cu ildə Bakıda vəfat etmişdir.

## İsa İbrahimov



İsa Hüsü oğlu İbrahimov 1925-ci il yanvarın 6-da Qərbi Azərbaycanın Zəngəzur mahalında, Qafan rayonunun Şəhərcik kəndində anadan olmuş və orta məktəbi də orada bitirmişdir.

1941-ci ildə Böyük Vətən Müharibəsi başlayanda onun 18 yaşı tamam olmasa da, könüllü olaraq cəbhəyə yollanmışdı. Müharibədən dərhal sonra İ.İbrahimov Qafan rayonunun Qaradığa və Əcili kəndlərində, 1948-ci ildən sonra isə Qafan şəhər 1 saylı beynəlmiləl orta məktəbində müəllim işləmişdir. Müəllim işləməklə paralel olaraq İ.İbrahimov 1946-cı ildə İrəvan şəhərində Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil olmuş və oranı fərqlənmə diplomu ilə bitirmişdir.

İ.İbrahimov yüksək savada, qeyri-adi düşüncə tərzinə və məntiqi çıxışlarına görə Qafan rayonu ziyalıları, o cümlədən pedaqoji kollektivlər arasında az bir müddətdə yüksək nüfuz qazanmağa nail olmuşdur. 1950-ci ildə xalq maarifi sahəsində atdığı uğurlu addımlar sayəsində o, rayon maarif şöbəsində inspektor vəzifəsinə təyin edilir, az sonra isə ona böyük etimad göstərilərək, maarif işçiləri həmkarlar təşkilatlarının konfransında həmin təşkilata sədr seçilir. Qafan kimi çoxsaylı ermənilərin yaşadığı bir şəhərdə onun bu vəzifəyə seçilməsi ermənilər tərəfindən onun bacarığının etirafı kimi qiymətləndirilməlidir.

Qafanda xeyli sayda azərbaycanlı əhalinin yaşamasına baxmayaraq, azərbaycan dilində qəzet nəşr olunmurdu. Həmin dövrdə onun ardıcıl səyləri nəticəsində azərbaycan dilində “Mis uğrunda mübarizə” adlı rayon qəzeti buraxılmağa başlamış və İsa İbrahimov 1960-cı ilə qədər həmin qəzetin baş redaktoru olmuşdur.

Qafan şəhərində mindən yuxarı məktəbyaşlı azərbaycanlı uşaq vardı və bu amil nəzərə alınaraq 1960-cı ildə ilk dəfə olaraq azərbaycan dilli orta məktəb istifadəyə verilmişdir. İ.İbrahimov 4 saylı orta məktəbə direktor təyin edilmiş və təqaüdə çıxana qədər həmin vəzifədə işləmişdir.

Düzlük, təmənnasız iş görmək İ.İbrahimovun həyat rəmzi idi. O, çətinliyə düşən hər kəsə kömək edər, hətta Qubadlı və Zəngilan azərbaycanlılarının da Qafanda pozulan hüquqlarını müdafiə edərdi.

İ.İbrahimov çox uzaqgörən idi və həmişə ermənilərin təxribat törədəcəklərini deyirdi. O, heç vaxt ermənilərə və onların həkimlərinə etibar etmirdi. Səhhəti ilə əlaqədar növbəti müalicə kursu üçün Bakıya gələ bilməyən İsa İbrahimov Qafanda müalicə aldığı xəstəxanada 1987-ci il oktyabr ayının 29-da erməni həkimin tapşırığı ilə vurulan iynə nəticəsində vəfat edir.

1988-ci ildə Zəngilanda 3 qafanlı erməni əsir götürülür və onların arasında olan Hamlet adlı erməni daşnakı İ.İbrahimovun xəstəxanada iynə vurularaq öldürülməsinin planlı şəkildə təşkil olunduğunu və bundan sonra Qafan azərbaycanlılarının qarşısında duran və onlara istiqamət verən olmadığı üçün onların asanlıqla deportasiya edildiyini etiraf etdi.

Zəngəzur elinin unudulmaz oğlu İsa İbrahimov onu tanıyanların xatirində daim yaşamaqdadır.

**İstifadə olunmuş ədəbiyyat:**


- **Azərbaycan Xalq Cümhuriyyəti ensklopediyası**, I, cild, Bakı, 2004;
- **Azərbaycan Xalq Cümhuriyyəti ensklopediyası**, II cild, Bakı, 2005;
- **Azərbaycan tarixi**. V cild, Bakı, 2001;
- **Azərbaycan Demokratik Respublikası**. Bakı, 1990;
- **Məmmədov İ.** Tariximiz, torpağımız, taleyimiz. Bakı, 2002;
- **Zeynalov Ə**. İrəvan ziyalıları. Bakı, 1999;
- **Talıblı T**. Əziz Əliyev. Bakı, 1997;
- **Əsədov S**. Heydər Hüseynov. Bakı, 1998;
- **Əbdülhüseyn Ənbiya oğlu**. XX əsrin 100 görkəmli azərbaycanlısı. Bakı, 2002;
- **Əhmədov T**. XX əsr Azərbaycan yazıçıları. Bakı, 2004;
- **Керимова Т**. Из истории национальной Академии Наук Азербайджана, Баку, 2005.
- İrəvanlı ziyalılar haqqında bioqrafik məlumatların hazırlanmasında həmçinin tədqiqatçılardan Ədalət Tahirzadənin, Şəfəq Nasirin məqalələrindən istifadə edilmişdir.